QARABAĞ AZƏRBAYCANDIR!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 082 (6282) 8 may 2021-ci il. Qiyməti 40 qəpik

“Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

Bax2



# AVRO-2020-nin kuboku Prezident İlham Əliyevə təqdim olunub

## YAP Veteranlar Şurası “Xalqa bəxş edilmiş ömür” mövzusunda videokonfrans keçirib



*Mayın 7-də Yeni Azərbaycan Partiyasının Veteranlar Şurası ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə “Xalqa bəxş edilmiş ömür” mövzusunda videokonfrans keçirib. SİA-nın verdiyi məlumata görə, videokonfransda çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, ümummilli liderimiz Heydər Əliyev xalqımız və dövlətimiz...*

Bax 3

## Bayram günlərində süni qiymət artımı nə ilə bağlıdır?- Ekspert açıqladı




“Bayram günlərində süni qiymət artımı tələbin artması ilə bağlıdır”. Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib. Onun sözlərinə görə, bazar tələb və təklif aksiomu ilə işləyir: “Tələb artanda keyfiyyətsiz mal və xidmət meydana çıxır və qiymət artımı baş verir. Bu xüsusən də özünü turizm sferasında göstərir.

Bax 10

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada “Xarıbülbül” musiqi festivalı keçiriləcək

Bax 4

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində “Xarıbülbül” musiqi festivalı keçiriləcək. Bu barədə...

## “Şuşanın işğaldan azad edilməsi milli qürur məsələsi idi”



“Hər bir azərbaycanlının fəxarət yeri olan Şuşa şəhərinin 1992-ci ilin mayın 8-də Ermənistan tərəfindən işğal olunması hər birimiz üçün ağır sarsıntıya səbəb oldu”. Bu sözləri SİA-ya açıqlamasında deputat Aydın Mirzəzadə deyib.

Bax 11

## Ermənilərin Çarları hesab etdikləri Tiqran kimdir?

Bax 10



2-ci Tiqranın Türk - Matay, Amaday və ya Əhəməni farsı olduğunu isbat edə bilərəm (tiqr-Dəclə çayının adından götürülüb).Tiqris isə sürətli ox deməkdir. Həmin dövrdə Dəclə çayı...

## “Paşinyan bu istiqamətdə qəti addımlar atmaq istəmir”

Bax 14



“10 noyabr sazişindən irəli gələrək və daha sonra Moskvada üçtərəfli görüşdə kommunikasiyaların açılması və iqtisadi qaydaların bərpa olunması ilə bağlı tərəflər razılığa gəlmişdilər”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib...

### Hər şeyə yarımçıq yamaq Gültəkin Hacıbəyli...



Bax 14

### “Əgər ermənilər minalanmış ərazilərin xəritəsini versələr...”




Bax 12

### 1 milyard dollarlıq yarış



Bax 16

# AVRO-2020-nin kuboku Prezident İlham Əliyevə təqdim olunub





Bu il iyunun 11-dən iyulun 11-dək keçiriləcək AVRO-2020-nin Kubok turu çərçivəsində Avropa çempionatının kuboku Bakıya gətirilib. AZƏRTAC xəbər verir ki, mayın 7-dən 9-dək Bakıda nümayiş olunacaq Avropa çempionatının kuboku Prezident İlham Əliyevə təqdim edilib.

UEFA-nın ilk baş katibi olmuş, Avropa çempionatının keçirilməsi təklifini irəli sürmüş şəxsin şərəfinə "Anri Delone kuboku" da adlandırılan bu kubok turnirin final oyununda qalib gələn komandaya təqdim olunacaq. Kubok Bakıdan sonra Danimarkanın paytaxtı Kopenhagenə aparılacaq. Xatırladaq ki, Avropa çempionatının 60 illik yubileyi münasibətilə AVRO-2020-nin oyunları müxtəlif ölkələrdə təşkil olunacaq. A qrupunun 3 oyunu və 1/4 final mərhələsinin 1 qarşılaşması Bakı Olimpiya Stadionunda keçiriləcək.

## Prezident İlham Əliyevin BBC-yə müsahibəsi 3 milyon baxışı keçib



Prezident İlham Əliyevin Vətən müharibəsi zamanı BBC-yə verdiyi müsahibə "Twitter"də 3 milyon baxış sayını keçib. SİA-nın məlumatına görə, 85 mindən çox insan tərəfindən bəyənilən paylaşıma 3 minə qədər şərh gəlib. 33 minə qədər insan isə videonu öz profilində paylaşıb.

Qeyd edək ki, təkcə 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın müsahibə verib. Prezident bütün müsahibələrində Azərbaycanın beynəlxalq hüquqa hörmətlə yanaşdığını, ədaləti müdafiə etdiyini, BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdiyini dəfələrlə dünya ictimaiyyətinin diqqətinə çatdırıb. Bu baxımdan, Prezident İlham Əliyevin 3 milyondan çox izlənilən müsahibəsinin xüsusi əhəmiyyəti var. İndiyə qədər Azərbaycanla bağlı heç bir müsahibə, çıxış beynəlxalq arenada bu qədər izlənilməyib.

## Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzalayıb



Mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncam Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə imzalanıb. Sərəncamda deyilir: "Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır.

Azərbaycana qarşı başladığı hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir.

Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirəsalınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan, Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır".

## Bəhreyn qəzeti ulu öndər Heydər Əliyevə həsr edilmiş məqalə yayıb


THE DAILY TRIBUNE - NEWS OF BAHRAIN

The Daily tribune NEWS OF BAHRAIN 07 May 2021 FRIDAY

HOME BAHRAIN WORLD BUSINESS SPORTS VIEWS TRENDS VIDEOS

HOME > VIEWS > AZERBAIJAN CELEBRATES 98TH ANNIVERSARY OF BIRTH OF NATIONAL LEADER HEYDAR ALIYEV

**Azerbaijan Celebrates 98th Anniversary Of Birth Of National Leader Heydar Aliyev**

VIEWS - MAY 07, 2021

By Shahin Abdullayev

There are leaders who remain in history, but there are leaders who create history. Heydar Aliyev, as an architect of the modern history of Azerbaijan, became a true legend of his time. History remembers him as a unique leader, a powerful head of state, a selfless man, and a legendary figure able to take on his shoulders a difficult historical task of state-building.

Heydar Aliyev has done unparalleled works for his nation during his tenure as the First Deputy Chairman of the Cabinet of Ministers of the USSR. After the collapse of the USSR his invaluable achievements enabled the young state to stand on feet and to enter into the 21st century as an independent country. Despite the fact that Azerbaijan declared restoration of its

Work From El Gouna Package

MOST READ

Bəhreyn Krallığının "The Daily Tribune - News of Bahrain" qəzetində Azərbaycanın Səudiyyə Ərəbistanındakı səfiri Şahin Abdullayevin xalqımızın ümummilli lideri Heydər Əliyevin 98-ci ildönümünə həsr etdiyi geniş məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalə "tarixdə iz qoyan liderlər var, lakin elə şəxsiyyətlər var ki, onlar tarixi yaradır" sözləri ilə başlayır. Müəllif yazır ki, Heydər Əliyev müasir Azərbaycan dövlətinin banisi kimi dövrünün əfsanəsinə çevrilib. O, tarixdə nadir şəxsiyyət, güclü dövlət başçısı, dövlət quruculuğu sahəsində taleyüklü bir dövrdə bütün məsuliyyəti öz üzərinə götürən Lider kimi qalıb.

Məqalədə Ulu Öndərin zəngin siyasi fəaliyyətinin müxtəlif dövrləri, ötən əsrin 90-cı illərinin başlanğıcında xaosa sürüklənən Azərbaycanı uçurumdan xilas etməsi barədə məlumat verilir. Müəllif vurğulayır ki, 1994-cü ildə təcavüzkar Ermənistanla atəşkəsə nail olduqdan sonra başlanan ordu quruculuğu Azərbaycan torpaqlarının işğaldan azad olunmasının əsasını qoydu. Məhz Heydər Əliyevin müdrik siyasəti nəticəsində iqtisadi cəhətdən qüdrətli dövlətə çevrilən gənc Azərbaycan Respublikası qısa zamanda dünya birliyinin nüfuzlu üzvlərindən birinə çevrildi. Məqalədə 1994-cü ilin sentyabrında imzalanmış "Əsrin müqaviləsi", həyata keçirilən nəhəng neft-qaz və kommunikasiya layihələri barədə ətraflı məlumat verilir. Eyni zamanda, müəllif yazır ki, Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsinin əsası öz xalqının vahid ideya ətrafında birləşməsi və dünyada öz layiqli yerini tutması idi. Bu gün Prezident İlham Əliyev onun ideya və müdrik siyasətini uğurla davam etdirir. Məhz bunun sayəsində Azərbaycan sürətlə inkişaf edir və özünün beynəlxalq nüfuzunu artırır. Bu düşünülmüş siyasətin nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi.

# YAP Veteranlar Şurası "Xalqa bəxş edilmiş ömür" mövzusunda videokonfrans keçirib













***Mayın 7-də Yeni Azərbaycan Partiyasının Veteranlar Şurası ümummilli lider Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə "Xalqa bəxş edilmiş ömür" mövzusunda videokonfrans keçirib. SİA-nın verdiyi məlumata görə, videokonfransda çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə bildirib ki, ümummilli liderimiz Heydər Əliyev xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlər göstərib.***

Ulu Öndərimizin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövr respublikamızın inkişaf və tərəqqi illəri kimi səciyyələndirilir. A.Rəhimzadə qeyd edib ki, Ulu Öndərin 1969-cu ildə hakimiyyətə gəlişi ərəfəsində respublikamız çox ciddi problemlərlə üz-üzə idi. Amma dahi şəxsiyyət Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra Azərbaycanda bütün sahələr inkişaf etməyə başladı. Bir sıra mühüm qərarlar qəbul edildi və atılan inamlı addımlar nəticəsində Azərbaycan keçmiş SSRİ-nin aqrar respublikasından sənaye-aqrar respublikasına çevrildi, yeni sənaye müəssisələri yaradıldı. Nəticədə Azərbaycan keçmiş İttifaq respublikaları arasında ön sıralara çıxdı.

Arif Rəhimzadə diqqətə çatdırıb ki, həmin dövrdə də Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları mövcud idi. Amma ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərlik etməyə başlayandan sonra ermənilərin bu iddialarının qarşısını qətiyyətlə aldı.

YAP Veteranlar Şurasının sədri qeyd edib ki, Ulu Öndərin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı ilə, ilk növbədə, Azərbaycan parçalanmaqdan, bir dövlət kimi məhv olmaqdan xilas edildi. Heydər Əliyev dühası, Ümummilli Liderin çox böyük nüfuzu və insanları Öz arxasınca aparmaq bacarığı sayəsində Azərbaycanın başının üstünü almış təhlükələr aradan qaldırıldı, ölkəmiz inkişaf yoluna çıxdı.

Arif Rəhimzadə söyləyib ki, ulu öndər Heydər Əliyevin irsi zəngin xəzinədir və bu irs dərindən öyrənilməlidir. Onun sözlərinə görə, bu gün Azərbaycan Prezidenti İlham Əliyev Heydər Əliyevin ideyalarını uğurla həyata keçirir: "2003-cü ildə cənab İlham Əliyev xalqın böyük etimadı əsasında Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. Bu gün ölkəmiz dünyada böyük nüfuz sahibidir, Azərbaycan heç kimdən asılı olmadan müstəqil siyasət həyata keçirir. Bu gün dövlətimizin təhlükəsizliyi tam təmin olunub, müstəqilliyimiz qorunur, Azərbaycan bütün sahələrdə, o cümlədən dünya birliyinin layiqli üzvü kimi beynəlxalq müstəvidə möhtəşəm uğurlar qazanır. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuz torpaqlarımızı işğaldan azad etdi. Bununla da Azərbaycanın inkişafının yeni mərhələsi başlandı".

Videokonfransda çıxış edən YAP Veteranlar Şurasının üzvü Əli Həsənov bildirib ki, Heydər Əliyev elə bir düha, elə bir dahi şəxsiyyətdir ki, haqqında nə qədər yazılsa da, Onun zəngin həyat və fəaliyyətini tam əhatə etmək mümkün deyil: "Heydər Əliyev həmişə xalqına arxalanıb və ondan güc alıb. Onun dediyi "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" sözləri həyatda həmişə təsdiqini tapıb. Respublikamızın keçmişinə nəzər salsaq, görərik ki, Ulu Öndər Ona qədər respublikanı idarə edənlər içərisində bütün varlığı və milliliyi ilə xalqının bu gününə və gələcəyinə xidmət edən, azərbaycançılıq ideyasını ön plana çəkən yeganə rəhbər olub. Yalnız ulu öndər Heydər Əliyev 1969-cu ildə ölkəmizə rəhbərlik etdikdən sonra milli kadrlara yol açıb".

Əli Həsənovun sözlərinə görə, milli birlik və həmrəylik, ictimai-siyasi sabitlik, müasir dünyanın tələblərinə uyğun iqtisadi inkişaf həmişə Ulu Öndərin dövlət idarəçiliyində prioritet istiqamətlər olub: "Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra çox çətin sınaqlarla, təhlükələrlə üz-üzə qalmışdı. Belə bir dövrdə xalq vəziyyətdən çıxış yolunu məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıtmasında gördü. 1993-cü ilin iyun ayında xalqın təkidli tələbi ilə Heydər Əliyev hakimiyyətə qayıtdı. Belə bir mürəkkəb dövrdə erməni təcavüzkarlığına qarşı mübarizə aparmaq, ictimai-siyasi sabitliyi bərpa etmək, iqtisadi islahatlar həyata keçirmək, ölkə iqtisadiyyatını inkişaf etdirmək, qaçqın və məcburi köçkünlərə qayğı göstərmək, beynəlxalq aləmdə Azərbaycanı tanıtmaq və onun dünyada layiqli yerini müəyyənləşdirmək, ölkəmizə inam yaratmaq - bütün bunlar Azərbaycanın qarşısında duran mühüm vəzifələr idi. Ümummilli Lider müdrikliyi, sarsılmaz iradəsi və zəngin dövlətçilik təcrübəsi ilə bu vəzifələrin öhdəsindən şərəflə gəldi, Azərbaycanı məhv olmaqdan xilas edərək inkişaf yoluna çıxardı. Heydər Əliyev xalqın və dövlətin xilaskarı oldu. Məhz Onun müəyyənləşdirdiyi siyasət ölkəmizin uğurlarının əsasını təşkil edir".

Bu gün Prezident İlham Əliyevin Heydər Əliyev siyasətini uğurla davam etdirdiyini deyən Əli Həsənov bildirib ki, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanımızın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizin ən parlaq səhifəsidir. Bu Zəfərlə Azərbaycan dünyaya öz gücünü və qüdrətini nümayiş etdirdi.

YAP Veteranlar Şurasının üzvü, Əməkdar jurnalist Tahir Məmmədov çıxışında bildirib ki, ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycanın inkişafına həsr edib. Onun sözlərinə görə, Heydər Əliyevin zəngin irsi bugünkü uğurlarımızı şərtləndirən əsas amillərdəndir. Müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin zəngin siyasi irsinin araşdırılması nəticəsində yaradılan yeni əsərlər müasir siyasi elmdə əhəmiyyətli yer tutur.

T.Məmmədov qeyd edib ki, Azərbaycan dövlətinin müstəqiliyinin möhkəmləndirilməsində və inkişafının təmin edilməsində müstəsna xidmətləri olan Heydər Əliyevin zəngin və təkrarolunmaz siyasi, elmi-fəlsəfi irsinin araşdırılması, öyrənilməsi, geniş və hərtərəfli tədqiqi sahəsində böyük işlər aparılır. Bütün bunlar Heydər Əliyev irsinin gələcək nəsillərə çatdırılmasında mühüm əhəmiyyət kəsb edir. Tahir Məmmədov deyib ki, xalqımızın qalib və müzəffər oğlu - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti Ulu Öndərin misilsiz xidmətlərinin uğurlu davamıdır.

YAP Veteranlar Şurasının sədr müavini, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədr müavini Sədaqət Qəhrəmanova da çıxışında ulu öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısındakı misilsiz xidmətlərindən bəhs edib. O, ölkəmizdə uğurlu dövlət qadın siyasətinin əsasının Ulu Öndər tərəfindən qoyulduğunu deyib.

Azərbaycanda qadınların hüquqlarının qorunmasının, onların ictimai fəallığının təşkili məsələsinin xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman diqqət mərkəzində olduğunu qeyd edən Sədaqət Qəhrəmanova vurğulayıb: "Heydər Əliyevin hakimiyyətinin bütün dövrlərində qadınlara göstərilən diqqət və qayğının artdığının şahidi olmuşuq. Məhz Onun ölkəmizə rəhbərliyi dövründə Azərbaycan qadınları cəmiyyət həyatının müxtəlif sahələrində öz sözlərini deyə biliblər. Azərbaycan qadını da hər zaman Ümummilli Liderin siyasətini dəstəkləyib".

S.Qəhrəmanova diqqətə çatdırıb ki, Heydər Əliyev ideyaları ətrafında sıx birləşən Azərbaycan qadınları Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyini, qayğısını hər zaman hiss edirlər.

Çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov bildirib ki, Azərbaycan gəncliyinin uğurlarının təməlində Ulu Öndər tərəfindən əsası qoyulmuş dövlət gənclər siyasəti dayanır. Ümummilli lider Heydər Əliyevin "Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır" fikrinin nəticəsi olaraq Azərbaycan gəncliyi öz dövrünün yeniliklərini öyrənərək yetişib. Bu gənclik dövlətinə və millətinə sadiqlik, vətənpərvərlik kimi ali milli dəyərləri mənimsəyərək formalaşıb.

Bəxtiyar İslamov qeyd edib ki, bu gün gənclərimiz Prezident İlham Əliyevin böyük qayğısı ilə əhatə olunublar. Hazırda Azərbaycan gəncliyi böyük bir vəzifənin daşıyıcısıdır. Bu vəzifə peşəsindən, təhsilindən, mövqeyindən asılı olmayaraq Azərbaycanın gələcəyi, daha sürətlə inkişafı və müstəqilliyinin qorunması üçün var gücü ilə çalışmaqdır.

# Bu günümüz və sabahımız Ulu Öndər Heydər Əliyevin yaratdığı özül üzərində ucalır



*Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadənin yap.org.az-a müsahibəsi*

**- Arif müəllim, mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü tamam olur. Bu əlamətdar hadisə münasibətilə ölkəmizdə müxtəlif tədbirlər keçirilir, o cümlədən, Ulu Öndərimizi yaxından tanıyan şəxslər Onun haqqında xatirələrini bölüşürlər. Bu mənada, siz fenomenal şəxsiyyət olan Heydər Əliyevi necə xatırlayırsınız?**

-Azərbaycanın yeni tarixinin bütöv bir dövrü XX əsrin nəhəng dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun adı xalqın simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilmişdir. Bu dövr iki hissədən ibarətdir. Birinci hissə 1969-1988-ci illəri, ikinci hissə isə sonrakı 15 ili əhatə edir. Düzdür, bu dövr ərzində Heydər Əliyev bir neçə il Azərbaycanın dövlət başçısı olmayıb, Bakıda yaşamayıb. Ancaq Heydər Əliyev hansı vəzifədə və harada olmasından aslı olmayaraq, Azərbaycanın hər bir şüurlu vətəndaşı onun dövlətçilik məharətinə, xalqına, vətəninə olan sevgisinə inanıb və güvənib.

Heydər Əliyev ilk dəfə 1969 - cu ilin yayında Azərbaycana rəhbər seçilməsi ərəfəsində respublikadakı vəziyyəti yaxşı xatırlayıram. Leninqrad şəhərində dissertasiya müdafiə etdikdən və Krasnodar vilayətində bir müddət işlədikdən sonra Bakıya yenicə gəlmişdim. Və özümdən aslı olmayaraq, ora ilə buranı daima müqayisə edirdim. Əfsuslar olsun ki, bu müqayisə heç də bizim xeyrimizə olmurdu. Cəmiyyətdə bədbinlik, ətalət, inamsızlıq əhval - ruhiyyəsi hökm sürürdü. Çoxları düşünürdü ki, həyatın mövcud axarına təsir etmək, onu dəyişdirmək mümkün deyil. Sosial -iqtisadi göstəricilərin əksəriyyətinə görə respublikamız ölkədə axrıncı yerlərdən birini tuturdu.Kənd təssərüfatı və sənaye məhsullarının, demək olar, bütün növlərinin istehsalı ilbəil azalırdı.

Ermənistanın respublikamıza qarşı ilk açıq ərazi iddiaları da həmin dövrə aiddir. Bu iddiaların hansı faciəli nəticələrə gətirə biləcəyini əhalinin böyük əksəriyyəti dərk etmirdi. Lakin, bu iddialar şəraiti xeyli kəskinləşdirir, xalqın respublika rəhbərlərinə inamsızlığını daha da artırırdı. Ulu Öndər Heydər Əliyev ictimai-siyasi həyatda yenicə yaranmaq istəyən meyilləri məharətlə sezir və respublikanı qarşıdakı sınaqlara vaxtında hazırlamaq üçün hər şeyi edirdi.Yüksək vəzifəyə seçildiyi ilk günlərdəAzərbaycana ərazi iddiaları ilə əlaqədar olaraq Ermənistan rəhbəri ilə görüşdü. Onların danışıqları barədə heç bir məlumatımız yoxdur, lakin erməni tərəfi anladı ki, Heydər Əliyev dövründə bütün səyləri əbəsdir. Sonrakı 19 il ərzində belə cəhdlər göstərilmədi.

**- Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində gördüyü işlər haqqında nə deyə bilərsiniz?**

-Ulu Öndər Heydər Əliyev geriliyin, inamsızlığın və sosial ətalətin aradan qaldırmasına nail oldu.1969-1982-ci illərdə iqtisadiyyatın bütün sahələrində köklü dəyişikliklər aparıldı. Kənd təsərrüfatı,yüngül və yeynti sənayeləri və digər sahələr sürətlə inkişaf etdi, mühüm sosial dəyişikliklər həyata keçirildi,insanların güzaranı yaxşılaşdı.Sənayedə struktur dəyişiklikləri edildi,mövcud sahələr modernləşdirildi. O vaxt sənaye məhsulunun əsas həcmi neftmaşınqayırması və neftemalı zavodlarının payına düşürdü. Bu məhsulların keyfiyyəti də yüksək deyildi.Əhalinin rifah halı istehsalın məhdud bir sahəsində işlərin vəziyyətindən aslı edilmişdi. Problem çoxdan yaranmışdı, lakin sahənin müasirləşdirilməsi istiqamətində bir fəaliyyət yox idi.

Heydər Əliyevin rəhbərliyi ilə sənayenin inkişaf proqramı həyata keçirildi. Azərbaycanda elektrotexnika,cihazqayırma, elektronika, dəzgahqayırma kimi mütərəqqi, elm tutumlu sahələrə aid yüzlərlə iri birlik, müəssisə və zavodlar yaradıldı.Energetika, neft kimyası, tikinti sənayesi güclü təkan aldı.Neft maşınqayırması və neftayırma zavodları modernləşdirildi.

Elm, ədəbiyyat, mədəniyyət, incəsənət parlaq inkişaf yolu keçdi.Azərbaycan xalqının mədəni və tarixi irsi geniş təbliğ edildi.Azərbaycanın görkəmli xadimləri ölkədə və onun hüdudlarından kənarda böyük rəğbət qazandılar. Respublikada yeni ali məktəblər və tədqiqat müəssisələri,onlarca kafedra və laboratoriyalar yaradıldı. Ali məktəblərə qəbul xeyli artırıldı. Moskvanın, Leninqradın, Kiyevin və ölkənin digər şəhərlərinin ali məktəbləri hər il Azərbaycandan əvvəlcə 500, sonralar isə 1000 nəfər gənci qəbul etməyə başladılar.

Sovet dövründə bir qayda olaraq azərbaycanlılar heç bir hərbi peşəyə yiyələnmirdilər, əsasən tikintidə, digər yardımçı sahələrdə xidmət edirdilər. Misal üçün, hərbi aviasiyada, pilot ixtisasında bir nəfərdə azərbaycanlı yox idi. Əlbəttə, belə halın yaranmasında Azərbaycana qarşı ittifaqda mövcud olan qeyri- səmimi münasibətin də təsiri var idi. Ancaq, açıq deməliyik ki, özümüzdə bu məsələyə heç bir maraq göstərmirdik, hərbi ixtisas üzrə milli kadrların olmasının əhəmiyyətini anlamırdıq. Heydər Əliyev azərbaycanlıların hərbi məktəblərə, o cümlədən hərbi aviasiya məktəblərinə göndərilməsini,onların hərbi ixtisaslara yiyələnməsi məsələlərinə nail oldu. Gəncləri yüksək vətənpərvərlik ruhunda tərbiyyə etmək, ölkənin gələcək sınaqlara hazırlamaq məqsədi ilə müttəfiq respublikaların içində ilk və yeganə hal idiki Azərbaycanda Naxçıvanski adına hərbi məktəb yaradıldı. Bu məsələ yuxarılarda qısqanclıqla qarşılansada, Heydər Əliyevinsəyləri nəticəsində öz müsbət həllini tapdı. Azərbaycan kosmanavt hazırlamaq vəzifəsini qarşıya qoyuldu.Bu məqsədlə ixtisaslaşdırılmış üçüş məktəblərinə onlarca gənc göndərildi.

1978 - ci ildə Heydər Əliyevin bilavasitə rəhbərliyi altında Azərbaycan Konstitusiyası hazırlanırdı. Konstitusiya layihəsində ana dilimizə dövlət dili statusu verilməsi nəzərdə tutulurdu.İttifaq rəhbərlərinin bir çoxunda bu fikir ciddi narazılıq doğurdu.Hətta, Ukraynanın o vaxtkı rəhbəri, Sovet İKP MK Siyasi Bürosunun üzvü Heydər Əliyevə irad da tutmuşdu. Ancaq, bu, Azərbaycanın gələcək müstəqilliyinə yönədilmiş ən sanballı addım idi və Heydər Əliyev bu müddəanın Konstitusiyada təsbit edilməsinə nail oldu.

1982 - ci ildə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin I müavini vəzifəsinə irəli çəkildi. Siyasi Büroya üzv seçildi- Sovet İttifaqı Kommunist Partiyasının ən yüksək pilləsinə. Bu vəzifədə Heydər Əliyevin fəaliyyəti əvvəlki dövrlə müqayisə olunmayan bir miqyas almışdı. Ancaq, bu yüksək və məsuliyyətli vəzifədə o, heç vaxt Azərbaycanı unutmur, daim onun sevincinə, kədərinə şərik olur, respublikanın iqtisadi və sosial inkişafı barəsində düşünürdü.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda beynəlxalq miqyaslı kurort və turizm sahəsinin inkişafına dair xüsusi proqram hazırlandı.Proqramda Abşeron yarımadasında və bütün Xəzər boyu müasir istirahət zonasının yaradılması nəzərdə tutulurdu.Gəncədə nəhəng avtomabil zavodunun tikintisi planlaşdırılırdı, bir neçə müasir hərbi sənaye kompleksi müəssisəsi, elektron hesabalama maşınları zavodu və digər obyektlərin inşası nəzərdə tutulurdu.Əfsuslar olsun ki, respublika rəhbərliyinin bacarıqsızlığı, siyasi bəsirətsizliyi nəticəsində bu və başqa obleyktlərin inşası başa çatdırılmadı.

**- 1990-cı illərin əvvəlində Azərbaycan olduqca mürəkkəb vəziyyətlə qarşı-qarşıya idi və faktiki olaraq siyasi, iqtisadi böhran dərin tənəzzülə yol açmışdı. Həmin dövrdə həm müstəqilliyin qorunub saxlanması, həm də milli dirçəlişin təməlinin qoyulması istiqamətində Ulu Öndər Heydər Əliyevin xidmətlərini necə dəyərləndirirsiniz?**

-Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci gəlişi Azərbaycanın müasir tarixində ən faciəli dövrdə -1993-cü ildə baş vermişdi.Ölkədə vəziyyət günbəgün pisləşir, hakimiyyət tam iflic vəziyyətə düşür.Partiyalar, ictimai-siyasi hərakatlar, nəhayət, bəzi imkanlı adamlar silahlı dəstələr və silahlı birləşmələr yaradırlar. Kriminal düşüncəli adamlar ağsaqqallıq etmək,dövlət rəhbəri olmaq iddiasına düşür və hətta buna nail olurlar.

Azərbaycan müharibəni açıq - aşkar uduzur. Erməni silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin ələ keçirilməsi hamını çaşqın vəziyyətə salır. Cəmiyyətdə müdafiəsizlik və yaşayışın mümkünsüzlüyü övqatı kütləvi xarakter alır. Prezident dönə -dönə Heydər Əliyevə müraciət edərək Bakıya gəlməsini xahiş edir.

1993-cu il iyunun 15-də Heydər Əliyev Azərbaycan Ali Sovetinin sədri seçilir, bir neçə gündən sonar isə prezident Bakıdan qaçdığına görə Milli Məclisin qərarına uyğun olaraq, hakimiyyəti bütünlüklə öz öhdəsinə götürür. Azərbaycan tarixində Heydər Əliyev zəmanəsinin ən dinamik, gərgin və səmərəli dövrü başlanır.Heydər Əliyevin nəhəng səyləri nəticəsində artıq başlanmış vətəndaş müharibəsinin alovları söndürülür.Lənkəranda və Gəncədə tabelikdən çıxmış silahlı birləşmələr tərkisilah edilir.Döyüş qabiliyyətinə malik əsl ordu yaradılır və onun döyüş qüdrəti sayəsində atəşkəs sazişinin bağlanması mümkün olur.

Xəzər dənizinin neft və qaz ehtiyyatlarının işlənməsi, yeni tranzit xətlərin çəkilməsi, Qədim İpək Yolunun bərpası, digər transkontinental layihələrin reallaşdırılması nəticəsində Azərbaycana beynəlxalq siyasi və maliyyə marağı yaranır. Republikamız dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilir. Naxçıvanda Heydər Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası yaradılır. İntellektual elitanın içərisindən çıxmış insanların təşəbbüsü əsasında formalaşan partiya respublikanın ən nüfuzlu siyasi təşkilatına çevrilir.

Heydər Əliyev iki dəfə respublikanın rəhbəri olduğu 30 ildən artıq bir dövr Azərbaycanın çoxəsirlik tarixində kiçik bir müddətdir.Lakin, bu dövr dövlətçiliyimizin və xalqımızın milli süurunun formalaşmasında tarixi bir mərhələ təşkil edir. Heydər Əliyevin hakimiyyətə birinci gəlişi xalqın həyatında dönüş nöqtəsinə, çiçəklənmə, cəmiyyətdə yeni dünyabaxışının yaranması, insanların öz qüvvə və imkanlarını dərk etməsi dövrünə çevrilmişdir. Biz naqislik kompleksi hissinə yaxın olan bir vəziyyətdən xilas olduq,özümüzü daha inamlı hiss etməyə başladıq, gözümüzdə dəyərlərimiz yüksəldi.

1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı yenicə əldə edilmiş müstəqilliyimizi, dağılmaqda olan dövlətçiliyimizi, hər kəsin və bütövlükdə millətin şərəf və ləyaqətini qorudu.Bu dövürdə demokratik inkişafın əsasları yaradılmaqla, uğurlu iqtisadi siyasət müəyyən edilib, həyata keçirildi.

**- Arif müəllim, bu gün müstəqil Azərbaycan Ulu öndər Heydər Əliyevin ideyaları əsasında inkişaf edir. Ümummilli Liderin əsasını qoyduğu siyasət Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələbləri və reallıqlarına müvafiq surətdə uğurla davam etdirilir. Bu baxımdan, müasir müstəqil Azərbaycanın hazırkı mənzərəsini necə dəyərləndirirsiniz?**

-2003-cü ildə cənab İlham Əliyev Azərbaycan Prezidenti seçildikdən sonra ölkənin inkişafında yeni mərhələ başlandı. İdarəçilikdə yeni ideya və yanaşmalar tətbiq olundu. İqtisadiyyatın sürətli inkişafı, ardıcıl, yüksək professionallıqla aparılan səmərəli xarici siyasət, ölkənin maliyyə imkanlarının artmasına, bir çox sosial problemlərin həllinə, ordumuzun müasir hərbi silah-sursatla təmin edilməsinə, ölkəmizin nüfuzunun beynəlxalq aləmdə yüksəlməsinə gətirib çıxardı. Biz yaxşı dərk edirik ki, bu nailiyyətlər Ulu Öndər Heydər Əliyevin yaratdığı özül üzərində ucalır.

Sonda, Ermənistanın 1988-ci ildəki rəhbəri Dəmirçiyanın bir çıxışını yada salmaq istəyirəm.Yeravanın Teatr meydanında, o, aşağıdakı sözləri demişdir: " Ey mənim sevimli erməni millətim, biz həlli mümkün olmayan bir işdən yapışmışıq. Yaxşı bilin ki, 20-ci əsrdə türklərin yetişdirdiyi iki qüdrətli adam var : Atatük və Heydər Əliyev. Onlardan ikincisi sağdır. Bütün cəhdlərimizə baxmayaraq, o, çekist məharəti ilə hər tələdən qurtarır. Bilin ki, nə qədər o sağdır, biz nə Qarabağı ala biləcəyik, nə də başqa əraziləri. O, bizdən ağır zərbələr alsa da, Azərbaycan xalqı ən çətin günlərdə yenidən onu Bakıya gətirəcək və bununlada bizim arzularımız puça çıxacaqdır". Bu fikrə nə demək olar ?! Yalnız bir kəlmə: " Ay başı bəlalı erməni xalqı, yadda saxla ki, Atatürk və Heydər Əliyevlə yanaşı, türk dünyasının İlham Əliyevi də var!".

## Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Şuşada "Xarıbülbül" musiqi festivalı keçiriləcək

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində "Xarıbülbül" musiqi festivalı keçiriləcək. Bu barədə Heydər Əliyev Fondundan məlumat verilib.




Qeyd edək ki, Şuşanın rəmzi olan gülün adını daşıyan "Xarıbülbül" musiqi festivalı ilk dəfə 1989-cu ilin may ayında Şuşanın əsrarəngiz Cıdır düzündə təşkil olunub.

32 ildən sonra Cıdır düzündə keçiriləcək budəfəki "Xarıbülbül" musiqi festivalı Heydər Əliyev Fondu tərəfindən təşkil olunur. Hazırda festivala son hazırlıq işləri görülür. Festival çərçivəsində Cıdır düzündə Azərbaycanda yaşayan müxtəlif xalqların musiqi yaradıcılığı "Azərbaycan musiqisində multikulturalizm" mövzusunda təqdim ediləcək, xalq mahnıları və klassik musiqidən ibarət proqram təşkil olunacaq.

# Heydər Əliyev Liderliyinin qalibiyyət və zəfər rəmzi!



*İlham Əliyev: "Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim"*

Dünyada elə bir xalq tapmaq olmaz ki, milli tarixinin ən mürəkkəb mərhələsində onun taleyində müstəsna rol oynamış, dövlətçilik ənənələri formalaşdırmış milli lideri olmasın. Çünki liderlərin mənalı və zəngin həyat səhifələrini



**Məhərrəm Əliyev, Azərbaycan Respublikası Prezidentinin köməkçisi - hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik**

vərəqləyərkən, addımlarının təhlillərini apararkən onların mənsub olduğu xalqların da dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar. Bu mənada, xoşbəxt xalqıq ki, bizim də əbədiyyət abidəmiz var - **ULU ÖNDƏR HEYDƏR ƏLİEV!**

Uca Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar. XX əsr tariximizin parlaq siması, böyük şəxsiyyəti olan Ümummilli Lider, Ulu Öndər Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Məhz Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində müstəqil Azərbaycan xarici siyasətində etibarlı tərəfdaşlıq və sabitlik mərkəzi kimi çıxış edən, iqtisadi və sosial rifah yolunda qətiyyətli addımlarla irəliləyən, "dövlət-vətəndaş" birliyinin təşəkkül tapdığı bir ölkəyə çevrilib.

### Heydər Əliyev həmin ilin iyulunda Bakıya gəlir və Onu qarşılayanlardan biri kimi Ulu Öndərimizlə ilk tanışlığımız olur

Dünya siyasət arenasında unudulmaz şəxsiyyətlərdən olan Heydər Əliyevin rəhbərliyi altında uzun müddət işləməyim, eləcə də Onunla şəxsi tanışlığım isə həyatımın böyük şərəfidir. Daim xatirələrimdə yaşayan ən mühüm məqamları da qeyd etmək istərdim. Daha dəqiq desəm, ən böyük xoşbəxtliyim və ömrüm boyu unutmayacağım hadisə dahi şəxsiyyət Heydər Əliyevlə yaxından tanış olmaq imkanının mənə nəsib olmasıdır. Ulu Öndərlə ilk görüşüm isə məhz tarixi məqamlara söykənir. Belə ki, sovet rəhbərliyinin 1990-cı ilin yanvarında xalqımıza qarşı qanlı faciə törətdiyi ən ağır vaxtda Heydər Əliyev həyatını təhlükə altına ataraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirib, 20 Yanvar faciəsinə siyasi qiymət verərək, mərkəzin və respublika rəhbərliyinin hüquqazidd əməllərini ifşa etmişdi. Tarixin məsuliyyətli və çətin, lakin şərəfli dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev həmin ilin iyulunda Bakıya gəlir və Onu qarşılayanlardan biri kimi Ulu Öndərimizlə ilk tanışlığımız olur. Lakin həmin çətin vaxtlarda qardaşı Cəlal Əliyevin evində qalan Heydər Əliyevə qarşı təhdidlər səngimir, xəyanətkar qüvvələr isə Onu Bakını tərk etmədiyi təqdirdə istənilən hadisənin baş verə biləcəyi ilə hədələyir, təhdid edirdilər. Nəticədə Heydər Əliyev Naxçıvana getmək məcburiyyətində qalır. Yaxşı xatirimdədir, Cəlal Əliyevlə görüşümüzdən sonra ertəsi gün Heydər Əliyevi Naxçıvana yola salmaq üçün aeroporta apardıq və Onu təyyarənin salonunadək ötürdük. Həmin anda mən əmin idim ki, bu gediş deyil, tarixi dönüşün başlanğıcı idi və bu an - bilavasitə Heydər Əliyev dühasının qətiyyətli varlığı artıq müstəqil Azərbaycanın tarix salnaməsinə qızıl hərflərlə həkk olunmağa başlamışdı.

Sonralar da Naxçıvanda olarkən, Ulu Öndərlə görüşlərimiz oldu. Yaşının çox və səhhətində müəyyən problemlərin olmasına baxmayaraq, hər zaman qamətli duruşu, daxili gücə və özgüvənə sahib olması, simasında ifadə olunan möhkəm iradə və qətiyyət, səsindəki amiranəlik Ümummilli Liderin bundan sonra da xalqına xidmət etmək iqtidarında olduğunu kifayət qədər əks etdirirdi. Bu gerçəkliklərdən həm də belə bir nəticə hasil olunurdu: Təbiətən çox təmkinli olsa da, baş verən haqsızlıqlara qarşı hər zaman barışmaz mövqedə idi. O, güclü siyasi fəhmə, taleyüklü məsələləri həll etmək bacarığına, dəmir iradəyə və zəngin idarəçilik təcrübəsinə malik şəxsiyyət idi!



### Uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır

Artıq biz kifayət qədər əminliklə, inamla vurğulaya bilərik ki, tükənməz Azərbaycançılıq məfkurəsinin parlaq mücəssəməsi olan Heydər Əliyev faktoru öz müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına, milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasına, dünyaya örnək olaraq təqdim olunmasına nail olub. Hadisələrə şahidlik edən tariximiz də bunu mərhələlərlə sübut edir.

Tarixi mərhələləri vərəqləyərkən biz qeyd edilən faktorları bir daha nəzərdən keçirməli oluruq: 1991-ci ildə öz dövlət müstəqilliyini bərpa edən xalqımız çox çətin sınaqlardan keçmiş, qanı bahasına qazandığı müstəqilliyi yenidən itirmək təhlükəsi ilə üzləşmişdi. Həmin dövrdə Azərbaycanda müstəqil dövlətçilik maraqları ilə üst-üstə düşməyən, bir çox hallarda isə onlara zidd olan qeyri-ardıcıl, səriştəsiz siyasətin aparılması, silahlı birləşmələrin özbaşınalığı, xaos və vətəndaş qarşıdurması, erməni təcavüzü bu təhlükəni daha da dərinləşdirirdi. Məhz belə bir ağır dövrdə - 1993-cü ildə xalqımızın təkidi və iradəsi ilə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıdaraq müstəqilliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli missiyanı öz üzərinə götürdü. Hətta o dövrdə təsəvvür etmək çətin idi ki, ömrünün müdrik çağında olan və çoxsaylı təhdidlərə məruz qalan Heydər Əliyev yenidən hakimiyyətə qayıtsın. Lakin buna rəğmən, O güclü şəxsiyyətin heç nədən çəkinmədən, öz həyatını belə təhlükəyə ataraq meydana atılması xalqı və dövləti qarşısında misilsiz fədakarlığı idi.

Şübhəsizdir ki, Ulu Öndərin apardığı müdrik siyasət nəticəsində müstəqilliyimiz qorunub, atəşkəsə nail olunub, dövlətlə xalqın birliyi təmin edilib. Və əgər bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarını düşmən tapdağından azad edibsə, bütün uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır.

*Ardı Səh. 6*

# Heydər Əliyev Liderliyinin qalibiyyət və zəfər rəmzi!

Əvvəli-Səh-5

Bu əsaslar Azərbaycanı ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı və əlbəttə ki, Ulu Öndərin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi...

## Onun hər zaman xalqının yanında olduğuna, onu böyük bir izdihamın müşayiət etdiyinə, hər bir vətəndaşa qayğı ilə yanaşdığına şahid olmuşam

Məhz həyatımın 10 ilə yaxın müddətində Heydər Əliyev kimi dünya şöhrətli dahi şəxsiyyətlə birgə çalışmağım, Onun rəhbərliyi ilə keçirilən tədbirlərdə iştirak etməyim mənə həmin hissləri yaşatmaqdadır. Ümummilli Liderimizin müvafiq qərarı ilə 1993-cü ildən uzun müddət Bakı şəhəri Baş Polis İdarəsinin rəisi vəzifəsində fəaliyyət göstərmişəm. Müstəqilliyini itirmək təhlükəsindən yenicə xilas olmuş ölkəmizdə həqiqətən də gərginlik müşahidə olunurdu. 1993-1998-ci illərdə paytaxt Bakı kimi böyük bir şəhərin təhlükəsizliyi, sözsüz ki, təmin olunmalı idi. Xaricdən təlimatlandırılmış qaragüruhçu qüvvələr demək olar ki, günaşırı mitinqlər, aksiyalar, küçə yürüşləri keçirir, müxtəlif sifariş və təxribat xarakterli addımlar atılırdı. Bütün bunların öhdəsindən gəlmək isə asan iş deyildi. Ancaq dahi rəhbərin qarşımızda qoyduğu tapşırıqları yerinə yetirmək ən ümdə vəzifəmiz idi. Biz dövlətçiliyimizin qorunması, müdafiəsi, vətəndaşlarımızın mühafizəsi, təhlükəsizliklərinin qorunması, ən nəhayəti isə, ölkəmizin inkişafı naminə dönməz mövqe sərgiləməyi məhz Ulu Öndərimizin qətiyyətindən öyrənmişdik, bəhrələnmişdik. Ümumiyyətlə, Heydər Əliyevin böyüklüyü, dövlətçilik səriştəsi həm də onda idi ki, o, hüquqi dövlət quruculuğu işində humanizm prinsiplərindən yerində və düzgün istifadə etməyi uzaqgörənliklə, müdrikliklə bacarırdı. Onun hər zaman xalqının yanında olduğuna, onu böyük bir izdihamın müşayiət etdiyinə, hər bir vətəndaşa qayğı ilə yanaşdığına şahid olmuşam. Heydər Əliyev Azərbaycanı Vətən, dövlət olaraq çox sevirdi, azərbaycanlı olması ilə fəxr edirdi. Azərbaycan kəlməsini gözləri yaşara-yaşara söyləməsi Onun Vətənə olan sevgisinin əyani təzahürü idi. Xalqın əbədi sevgisini qazanan Ulu Öndər Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına dövlət müstəqilliyimizi yenidən bərqərar etdi. Azərbaycan dağılmaqda olan ölkədən inkişaf edən ölkəyə, vətəndaş müharibəsi astanasında olan ölkədən vətəndaş həmrəyliyi olan ölkəyə çevrildi.





Burada bir məqamı xüsusilə diqqətə çatdırmaq istərdim. Məhz Ulu Öndər Heydər Əliyevin atəşkəsə nail olandan sonra bütün gücünü, diqqətini ordu quruculuğuna yönəltməsi artıq bizlərə o anlamı verirdi ki, işğal altında qalan torpaqlarımız gec-tez düşməndən azad olunacaq və bu amil Onun ən ümdə vəzifəsi idi. Heydər Əliyev gecə və gündüz Qarabağın azad olunması üçün fəaliyyət göstərir, iqtisadiyyatı gücləndirir, bu sahənin sayəsində ordu quruculuğunun formalaşdırılması istiqamətində mühüm qərarlarını verirdi. O, bilirdi ki, Qarabağın azadlığı güclü ordudan, bacarıqlı əsgər və zabit heyətindən keçir. Bu baxımdan da hər an, hər dəqiqə belə məqamları dərindən təhlil edir, nəticələrə gəlir və qərarlarını verirdi. Bu, Onun uzaqgörən siyasətinin tərkib hissəsi idi. Məhz belə bir məqamlarda Heydər Əliyev şəxsiyyətinin rəhbərliyi altında çalışmaq mənə, mənimlə çalışan əməkdaşlara davamlı stimul verirdi. Bütün bunlar unudulmayacaq qürur, yaddan çıxmayacaq fərəh və şərəf gerçəkliyidir!

## Azərbaycan xalqının Dahi Oğlu Heydər Əliyev məktəbinin, irsinin müdavimi olan cənab Ali Baş Komandanımız İlham Əliyevin "Qarabağ Azərbaycandır!" kəlamı və Onun "Dəmir Yumruğ"u hesabına yağı düşmənin başı əzildi

Bu gün Azərbaycan xalqı 200 illik tarixini bərqərar edib - Ulu Öndər Heydər Əliyevin siyasi və layiqli varisi, Ali Baş Komandan, Prezident İlham Heydər oğlu Əliyev cənablarının qətiyyəti, dönməz iradəsi, Liderliyi və Sərkərdəliyi sayəsində. Bəli, Azərbaycan xalqının Dahi Oğlu Heydər Əliyev məktəbinin, irsinin müdavimi olan cənab Ali Baş Komandanımız İlham Əliyevin "Qarabağ Azərbaycandır!" kəlamı və Onun "Dəmir Yumruq"u hesabına yağı düşmənin başı əzildi. Azərbaycan Ordusu bütün dünyaya nümayiş etdirdiyi Qarabağ zəfəri ilə yeni hərb tarixini də yazmış oldu. Yeni hərb tarixinin yazılması isə çox çətin, hətta deyərdim ağır işlərin, fədakarlıqların sayəsində əldə eidlib. 44 gün ərzində qazanılan qalibiyyət yürüşü enişli-yoxuşlu yolların aşılmasından sonra gerçəkləşdirildi. Mənfur düşmən üzərində 2016-cı ildə qazanılmış Aprel zəfəri, eləcə də 2018-ci ildəki Günnüt qalibiyyəti məhz 2020-ci ilin 10 noyabr qalibiyyətinə doğru aparan şərəf yolu olaraq tariximizə yazılıb. Bu, eyni zamanda, Xalq-Dövlət-Ali Baş Komandan gerçəkliyinin məntiqi nəticəsi idi. Bu vəhdət, bu birlik dünyanın bütün ölkələrindən heyrətlə izlənildi, Azərbaycan dövlətinin nə qədər dərin əsaslara, təməllərə söykənməsi faktının şahidi oldu.

Ardı Səh. 7

# Heydər Əliyev Liderliyinin qalibiyyət və zəfər rəmzi!

Əvvəli-Səh-6

44 günlük haqq savaşı adlarını tariximizə əbədi həkk etdirən qəhrəman şəhid və qaziləri tanıtdı. Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı və daim gələcək irsimizə tanıdacaq. Vətən uğrunda qanını canını fəda edən şəhidlərimiz, sağlamlığını qurban verən qazilərimizin vətən borcu ödəndi. Hər qarış torpaqlarımızın azad olunmasına görə onlara borcluyuq və heç zaman unutmamalıyıq.

Təbii ki, artıq Azərbaycan dünyanın ən güclü orduları sırasında yer alır və bunu 5-ci nəsil müharibə uğurları ilə isbatlayıb. Ən müasir hərbi texnologiyalardan tutmuş zirehli texnikalara, PUA-lara, tank və helikopterlərə, qırıcı təyyarələrə və s. silahlara aresnallara sahib olan Silahlı Qüvvələrimiz bundan sonrakı müddətdə də gücləndirilməkdə davam etdiriləcək. Cənab Prezident öz çıxışlarında bu məqamlara da toxunub və bəyan edib ki, Azərbaycan Ordusu davamlı şəkildə gecləndiriləræk daha modern silah sistemləri ilə təchiz olunması davam etdiriləcəkdir.

### Ali Baş Komandanımız iki cəbhədə öz “Dəmir Yumruğ”unu göstərdi - Qarabağda və mediada və hər iki cəbhədə də qətiyyətli qələbə qazandı

Yeri gəlmişkən, daha bir mühüm məqama da toxunmaqla qeyd etmək istərdim ki, 44 günlük Vətən müharibəsi dövründə cənab Prezident İlham Əliyev eyni zamanda Ali Baş Komandan kimi demək olar ki, dünyanın 30-dan çox aparıcı və nüfuzlu media qurumlarına geniş tərkibli müsahibələr verdi və yüksək maraqla izlənən bu müsahibələrin hər biri, həmçinin düşmənlə aparılan informasiya müharibəsində qalibiyyət simvoluna çevrildi. Təsəvvürünüzə gətirin, müharibə aparan bir ölkənin dövlət başçısı ağır iş rejimi və qrafiki olmasına baxmayaraq, mediaya xüsusi diqqət göstərdi. Belə ki, düşmənə cəbhədə verilən layiqli cavablar media məkanında da verilirdi.

Deyərdim ki, Ali Baş Komandanımız iki cəbhədə öz “Dəmir Yumruğ”unu göstərdi - Qarabağda və mediada və hər iki cəbhədə də qətiyyətli qələbə qazandı. Söz yox ki, dövlətimizin başçısı buna qədərki dövr ərzində, daha dəqiq desək, 10 noyabr Bəyanatından sonrakı atəşkəs müddətində də azad olunmuş ərazilərimizə etdiyi çoxsaylı səfərləri zamanı düşmənə xatırladtı ki, əgər hər hansı bir təxribata, pozuntulara yol verilərsə, cavab əvvəlkindən də ağır olacaq.

Artıq Ermənistanın qarşısında yenilməz, müasir və çevik, qüdrətli Azərbaycan Ordusu dayanıb!

Bu baxımdan, cənab Ali Baş Komandan İlham Əliyev qarşıda dayanan məsələlər barədə verilən sualları da cavablandırarkən vurğuladı ki, Ermənistan tərəfi yeni reallıqlarla barışmalı, bizimlə hesablaşmalı, sülh və əminamanlığı bərpa etməklə regionun inkişafından bəhrələnməlidir. Bu gün Ermənistanın yalnız iqtisadi, soasial deyil, həm də hərbi-siyasi böhran içində olması, ölkə daxilində hərc-mərcliklərin davam etməsi, eləcə də keçmiş hakimiyyətdən olan revanşistlərin yenidən iqtidara can atmaları 10 noyabr Bəyanatının pozulmasına yönəlmiş addımlardır və Ermənistan Bəyanatının müddəalarını icra etməzsə, onlar üçün əvvəlkindən də böyük problemlərin yaranmayacağına kimsə zəmanət verə bilməz! Artıq Ermənistanın qarşısında yenilməz, müasir və çevik, qüdrətli Azərbaycan Ordusu dayanıb!

### “YAŞAT” Fondu - Azərbaycan dövləti hər zaman öz əsgərinin yanındadır!

Artıq o da məlumdur ki, ötən il dekabrın 8-də Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondu - “YAŞAT” Fondunun yaradılması ilə bağlı fərman imzalandı. Belə ki, 44 günlük haqq savaşı adlarını tariximizə əbədi həkk etdirən qəhrəman şəhid və qaziləri tanıtdı. Azərbaycanımızın məğrur, vətənpərvər, cəsur oğullarını nəsillərimiz tanıdı və daim gələcək irsimizə ta-

zidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və tapşırığı ilə həyata keçirilən sosial dəstək və dayaq məqsədli yardım aksiyaları, şəhid və qazi ailələrinə xüsusi həssaslıq və qayğı ilə yanaşma xalqımız tərəfindən daim rəğbət və sevgi ilə qarşılanır. Bizlər isə inanırıq və əminik ki, Xilaskarlıq Missiyası xalqımızın həmrəylik və milli birlik ruhunda hər zaman uğurla davam edəcək və ölkəmiz daim qüdrətlənəcək, çünki bu missiyanın təməl prinsipi Qələbə və Zəfər gerçəkliyidir.

Azad olunmuş torpaqlarımızda düşmən izlərini gördükcə, digər

müdafiə xətti” deyilən bufer zonalarından həm də belə nəticəyə gəlmək olar ki, onlar işğalçılıq niyyətlərini uzun illərə bağlayırdılar. Ancaq onların bu istəkləri nəticəsiz qaldı və bu gün azad olunmuş torpaqlarımızda düşmən izlərini gördükcə, digər əminliyimiz də artır - bu torpaqlarımız bilavasitə cənab Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən dirçəldiləcək, abadlaşdırılacaq, dünyanın ən gözəl cənnət güşələrinə çevriləcək.

Səfərimizdən öncə məhz bu ərazilərimizdə Azərbaycan zabitinin, əsgərinin qürurunun, qartal baxışlarının erməni zabitini necə




### Ali Baş Komandanın tarixi hesabatı...

Qarabağımızın azad olunmasının ən həssas məqamı isə qədim tarixi mədəniyyət irsimiz Şuşanın düşmən tapdağından azad edilməsi oldu. Cənab Ali Baş Komandan İlham Əliyevin Şuşamızın azad olunması ilə bağlı dediyi fikirləri isə hər bir azərbaycanlının qəlbində inanılmaz coşqu hissi yaratdı. “Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

Bəli, bu, həm də bir tarixi və mənəvi hesabat idi - Azərbaycan Respublikasının Prezidenti, cənab Ali Baş Komandan İlham Əliyevin xalqımızın Ulu Öndəri, Ümummilli Lideri, Əbədiyyət Simvolu Heydər Əliyevə verilən qürur, şərəf hesabatı!

nıdacaq. Vətən uğrunda qanını canını fəda edən şəhidlərimiz, sağlamlığını qurban verən qazilərimizin Vətən borcu ödəndi. Bizlər hər qarış torpaqlarımızın azad olunmasına görə onlara borcluyuq və heç zaman unutmamalıyıq. Məhz “YAŞAT” Fondunun yaradılması və bu qurumun üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməsi də belə qənaətə gəlməyə zəmin yaradır ki, Azərbaycan dövləti hər zaman öz əsgərinin yanındadır! Şəhid ailələrinə və onların övladlarının təhsillərinə, sosial-məişət həyatlarına göstərilən diqqət və qayğı ilə yanaşı, qazilərimizə, müharibə zamanı ağır yaralanan, əlil qalan hərbçilərimizə tətbiq edilən bütün imkanlar dövlət və ordu birliyinin nə qədər möhkəm dayaqlara söykəndiyini əks etdirməkdədir. Hazırkı dövrə qədər müalicələri yalnız xarici ölkələrdə mümkün olan onlarla hərbçilərimiz sonradan Azərbaycana ən sağlam şəkildə geri qayıtdılar. Həmçinin, onların mülki həyatda işlə təminatları məsələsi də daim dövlətin diqqəti mərkəzindədir.

Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-pre-

əminliyimiz də artır - bu torpaqlarımız bilavasitə cənab Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən dirçəldiləcək, abadlaşdırılacaq, dünyanın ən gözəl cənnət guşələrinə çevriləcək

Məqaləmin sonunda 2021-ci ilin 3-4 may tarixlərində “Qubadlı” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə etdiyim səfər və onun təfərrüatlarını bölüşmək istərdim. Qeyd edim ki, Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyətinin yoxlanılması, son müddətdə bu ərazilədə aparlan işlərlə tanış olmaq üçün reallaşdırılan səfərdə bir daha şahidi oldum ki, yağı düşmən nə qədər mənfur biri olub. Demək olar ki, heç bir salamat bina, ev, tikili və sosial infrastrukturu olmayan bu ərazilərin 30 ilə yaxın müddət ərzində talan edilməsi, dağıdılması da sübut edir ki, düşmənlərimiz heç bir insani dəyərlərə, şərəf və ləyaqətə sahib olmayanlar sırasında yer alırlar. Əlbəttə ki, onlar bu vandalizm akdlarına görə də mütləq cavab verməli olacaqlar. Erməni işğalçılarının “Ohanyan

məyis etməsi görüntülərini izləmişdim. Təkcə bu görüntü də sübut edir ki, Azərbaycan Ordusu bundan sonra heç vaxt və əsla düşmənin ayaq açıb-yürüməsinə izn verməyəcək. Bu dədə-baba torpaqlarımız əmin əllərdə, etibarlı nəzərlərdə qorunur, mühafizə olunur.

Eyni zamanda, həmin əraziləri müşahidə edərkən daha bir düşüncəyə daldım ki, zamanında Ulu Öndər Heydər Əliyev bu ərazilərdə mühüm iqtisadi, sosial zonalar yaradaraq həm də təsərrüfatın inkişafı üçün nəhəng işlər həyata keçirmişdi. İndisi isə onlardan əsərəlamət qalmayıb. Ona görə də əminəm ki, sonrakı proseslərdə bu ərazilərimiz daha da abad vəziyyətə gətirilməsi ilə yanaşı, dünyanın diqqətinə də özünə cəlb edəcək. Bizim xalqa, bizim ölkəmizə və dövlətimizə yalnız qələbə, zəfər yaraşır və bu zəfəri bizlərə yaşadan Ulu Öndər Heydər Əliyevin layiqli siyasi varisi Müzəffər Sərkərdəmiz, Ali Baş Komandanımız cənab İlham Əliyevdir. Bu siyasət yaşadıqca, yaşadıldıqca Azərbaycanı qarşıda daha böyük zəfərlər, qələbələr gözləyir!

# İlham Əliyev: “Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim”



**Fikirlərimi Ulu Öndər Heydər Əliyevin tarixi müraciətində peyğəmbərcəsinə vurğuladığı kəlamı və bu dahi şəxsiyyətin siyasi varisi, layiqli davamçısı, Prezident İlham Əliyevin ifadəsi ilə başlamaq istərdim: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.**

* * *



**Bəhruz QULİYEV, “SƏS” qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru**

**“Mən bu gün, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim...”.**

* * *

### Mötəbərliyin, qarşılıqlı etimadın, əmanətin tərənnümü

Bəli, məhz bu kəlamların istər siyasi, istərsə də mənəvilik əhəmiyyətini təhlil edərkən bir daha aydın olur ki, Heydər Əliyev dühası nə qədər müdrik, uzaqgörən və nəhəng strateq olub. Onun bu ölçüyəgəlməz məziyyətləri isə bilavasitə Azərbaycan dövlətinin, Azərbaycan xalqının qalibiyyət gələcəyinə hesablanmış böyük fədakarlıq nümunəsidir. Əgər bu gün Azərbaycan xalqı, hər bir vətənsevər yeniyetmə, gənc, orta və yaşlı nəsil nümayəndələri Ümummilli Lider Heydər Əliyevi xatırlayırsa, anırsa demək ki, bugünün güclü, qüdrətli və ən nəhayət qalib ölkəsinin təməlinin məhz Onun - böyük dövlət xadiminin tərəfindən qoyulduğunu minnətdarlıq hissi ilə dərk edir. Çünki Heydər Əliyev amalının əbədiyaşar siyasət olduğunu bilir, bu siyasətin Ulu Öndər tərəfindən layiqli siyasi varisinə ötürüldüyünü xatırlayır, xalqın isə tarixi bəyanata birmənalı dəstək göstərdiyini qürurla anırıq. Bu, həm də bir mötəbərliyin, qarşılıqlı etimadın, əmanətin tərənnümüdür ki, hər xalqa, hər millətə nəsib olmur.




Eyni zamanda, əgər Azərbaycan qalibiyyət, tərəqqi, inkişaf yolunu tutubsa, zəfərlərə imza atıbsa, regional gücdən beynəlxlq aləmə dinamik sıçrayış edibsə, bütün bunların təməlində Ulu Öndər Heydər Əliyev ideologiyası və bu ideologiyanı yaşadan, inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandan, Böyük Sərkərdə - İlham Əliyev faktoru və onun da əsasında dövlət-xalq sarsılmazlığının vəhdəti dayanmaqdadır. Əbəs deyil ki, biz İlham Əliyev reallığı barədə fikir bildirərkən Onun Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi də vurğulayırıq. Bu iki ayrılmaz və danılmaz məfhum mütərəqqi Liderlik gerçəkliyini bütün çalarları ilə əks etidrməkdədir. Yəni bizlər İlham Əliyevin fəaliyyəti istiqamətindəki faktiki gerçəkliklərə sistemli olaraq nəzər salsaq bir çox enişli-yoxuşlu keçidlərin, mərhələlərin şahidlərinə çevirlmiş olarıq. Bu ifadə İlham Əliyevin üzərinə düşən və ardıcıllığı ilə seçilən missiyanın mühüm xarakterlərinin ilk göstəricilərindədir.

### Prezident İlham Əliyevin 2003-cü ildə verdiyi vədlərin yerinə yetirilən Lider sözü

Heydər Əliyev siyasi məktəbinin varisi və layiqli davamçısı İlham Əliyevin hələ 2003-cü ildə ölkə başçısı kimi səlahiyyətlərinin icrasına başladığı ilk gündən hakimiyyəti xalqa xidmət vasitəsi hesab etdiyini bildirməsi varisliyin layiqli davamının siqnalı idi. Onun Ümummilli Lider Heydər Əliyev siyasi xəttini yüksək səviyyədə davam və daha da inkişaf etdirməsi müasir dövrdə Azərbaycanın dinamik tərəqqisini şərtləndirən mühüm hadisə olaraq dəyərləndirilir.

Yəqin ki, bir çoxlarınız zaman-zaman, ölkəmizin taleyüklü məsələləri ilə bağlı müxtəlif diskussiya və müzakirələr zamanı bu ifadəni tez-tez işlətmisiniz, yaxud eşitmisiniz - Əgər Heydər Əliyev olmasa idi, indi nə müstəqil Azərbaycan, nə də dövlətçiliyimiz olmayacaqdı. Biz xoşbəxt xalqıq ki, bizim Ulu Öndərimiz olub və bu gün Onun davamçısı, Prezident İlham Əliyev Heydər Əliyev ideologiyasının əbədiyaşarlığını qoruyub-saxlayır, inkişaf etdirir. Təbii ki, bu belədir və belə olmasa idi indi hətta bu məqalədəki ifadələrimizi belə ictimai diqqətə çatdıra bilməzdik. Bax, bu təhlilin də mühüm və incə nüasnları sözügedən gerçəkliyi üzə çıxarır, ehtiva edir. Heydər Əliyev ideologiyası və bu ideologiyanın yaşadılması Azərbaycan xalqının ən böyük xoşbəxtçiliyidir!

Və əbəs deyil ki, Prezident İlham Əliyevi Azərbaycanda alternativsiz liderə, Cənubi Qafqaz regionunda isə böyük siyasi və dövlət xadimi olaraq tanınmaqdadır. Bu mənada, Ulu Öndər Heydər Əliyevin 2003-ci ildəki prezident seçkiləri ərəfəsində irəli sürdüyü daha bir fikrini diqqətə çatdırmaq yerinə düşərdi. O, cənab İlham Əliyevi şəxsiyyət və dövlət xadimi kimi xarakterizə edərkən deyirdi: “İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir”.

Ümumiyyətlə, bu ifadələr İlham Əliyevin bütövlükdə xarakter cizgilərini, Onun imkan və potensialını, böyük qabiliyyət və bacarığını ifadə edirdi. Yeni dövrün görkəmli siyasətçisi və dövlət xadimi kimi Prezident İlham Əliyev üçün böyük siyasətdə, beynəlxalq münasibətlərdə, ölkədaxili məsələlərin həllində, dövlət idarəçiliyində Heydər Əliyevin siyasi təlimi möhkəm təməl, ən etibarlı bünövrədir. Bü gün İlham Əliyev hakimiyyəti möhkəm, sarsılmaz dövlətçilik ucalığı üzərində dayanmaqdadır. O cümlədən, qlobal dünyamızda baş verən hadisələrə və proseslərə tarixi baxışla bir sırada dünyanın hazırkı reallıqlarının və yeni dövlətçilik təfəkkürünün işığında yanaşmaq, qiymət vermək və bütün bunlara uyğun olaraq əsaslı qərarlar





qəbul etmək birmənalı olaraq cənab İlham Əliyevin dövlət xadimi olaraq, həm də dövləti idarəetməsinin əhəmiyyətli əsasını təşkil edir.

### Artıq 18-ci ilə qədəm qoyan müasir dövlətçilik siyasətinin məcmusu altında Heydər Əliyev irsi və İlham Əliyev imzası dayanır!

Azərbaycan regionun lider dövləti olaraq, strateji məsələlərin həllində müstəqil və prinsipial mövqe nümayiş etdirməklə dünya birliyinin vacib partnyoruna çevrilib. Sosial-iqtisadi, ictimai-siyasi və humanitar, təhsil, səhiyyə, enerji təhlükəsizliyi, regional təhlükəsizlik, qlobal tərəqqi və s. çoxşaxəli sahələri əhatə edən bir çox dövlət proqramları uğurla həyata keçirildi, ölkədə vətəndaş cəmiyyəti və hüquqi dövlətin əsas dayaqları daha da möhkəmləndi. Beləliklə, artıq 18-ci ilə qədəm qoyan müasir dövlətçilik siyasətinin məcmusu altında Heydər Əliyev irsi və İlham Əliyev imzası dayanır!

Daha bir xüsusi məqamı qeyd etmək yerinə düşərdi. Belə ki, Prezident İlham Əliyevin neftdən gələn gəlirlərin insan kapitalına çevrilməsi ideyası və bu fenomenal ideyanın bu gün çox məharətlə reallaşdırılması faktı Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirən mühüm siyasi gedişlərdən biridir. O strategiya ki, 1993-cü ildə Ulu Öndər Heydər Əliyev qətiyyəti ilə müəyyən olunmuşdu. Etiraf edilməlidir ki, əgər bu strategiya müəyyən edilməsəydi, indi hər şey tamamilə başqa cür mövcud olacaqdı.

Nəticədə isə qarşıda qoyulan bütün məqsədlərə çatmaq üçün Prezident İlham Əliyevin daxili siyasətində regionların sosial-iqtisadi inkişafı mühüm yer tuturdu və bu istiqamətdə də görülən işlər Onun alternativsiz dövlət xadimi olaraq bütün uğurlarını səciyyələndirməkdədir - neft siyasətindən ölkənin inkişafı mərhələlərinə qədər gedən çətin bir yol. Heç şübhəsiz ki, qeyd edilən strateji məqsədlərin həyata keçirilməsinə yönəldilmiş sosial-iqtisadi siyasətin ana xəttini əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi təşkil edirdi ki, artıq bu yolun da mühüm hissəsi keçilib, qarşıda isə daha nəhəng işlər dayanmaqdadır.

### Qarşıda isə Azərbaycan xalqının, dövlətinin bir nömrəli problemi qalmaqdaydı...

Lakin növbəti bir əhəmiyyətli məqam xarici siyasətin qurulması və uğurla davam etdirilməsi ilə bağlıdır. Sirr deyil ki, Azərbaycanın düzgün və tarazlaşdırılmış xarici siyasət aparması respublikamızla həm qonşu dövlətlər, həm də dünyanın bütün ölkələri arasında mehriban dostluq və qarşılıqlı faydalı əməkdaşlıq münasibətləri yaradıb. Məhz bunun nəticəsində ölkəmizdə transmilli iqtisadi layihələr uğurla həyata keçirilir, milli mənafelərimiz beynəlxalq aləmdə uğurla qorunur və ölkəmiz ən nüfuzlu beynəlxalq təşkilatlarda ləyaqətlə təmsil olunur.

Hələ illər öncə İlham Əliyev dövlət xadimi olaraq Azərbaycanın Ermənistanın işğalçılıq syatəsi ilə barışmayacağını bəyan edir, torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmayacağını vurğulayır, haqq və ədalət səsimizi çoxsaylı beynəlxalq sammit və konfranslarda bəyanatlarla ucaldırdı. Əgər bu gün beynəlxalq aləmin mühüm hissəsi özünü Azərbaycanın yanında gördüyünü qeyd edirsə, bunun kökündə düzgün xarici siyasətin dayanması şəksizdir. Daha dəqiq desək, məqsədyönlü xarici siyasət nəticəsində Azərbaycan dünya birliyinin layiqli üzvünə və regionun liderinə çevrilib və bunun daha geniş izahı məqalənin aşağı hissələrindədir. Qarşıda isə Azərbaycan xalqının, dövlətinin bir nömrəli problemi qalmaqdaydı və bu problemin kökündə həll olunması vacibliyi özünü daha çox göstərməyə başlamışdı.

### Ali Baş Komandan: Qalib Sərkərdə strategiyasının əməli sübutu - qalibiyyətə aparan möhtəşəm yol

Qeyd etdiyimiz kimi, Azərbaycanın digər sahələrdə əldə etdiyi uğur və qələbələri ölkəmizin iqtisadi qüdrətini artırmaqla yanaşı, həm də Ordumuzun güclənməsinə, peşəkar ordular sırasında yer almasına geniş şərait yaradırdı. Bu xüsusda, Ordu quruculuğu prosesinin aparılmasında da Prezident İlham Əliyevin Ali Baş Komandan olaraq bilavasitə iştirakı öz labüdlüyünü qoruyub-saxlamaqda idi. Ermənistanın işğalçılıq siyasəti, torapqlarımızı sülh yolu ilə təhvil vermək istəməməsi isə həmin labüdlüyü daha da artırdı. Nəticədə düşmənin silahlı təxribatlarına birdəfəli cavabın verilməsi zamanı çatdı. Bu qalibiyyətə qədər gedən hərbi yol da asan başa gəlməmişdi. Azərbaycanın hərbi sənaye potensialının artırılması, ildən-ilə çoxsaylı və irimiqyaslı hərbi təlimlərin həyata keçirilməsi, silah-sursat, hərbi texnika, təchizat və avadanlıqların ən masir standartlar səviyyəsinə çatdırılması, dost və qardaş ölkə - Türkiyə ilə strateji bağların möhkəmləndirilməsi, dünyanın hərbi potensialı, güclü olan ölkələri ilə sıx əlaqələrin qurulması, bunun ardınca isə dəstəyin əldə edilməsi, habelə milli ruhun, döyüş ruhunun anbaan artırılması - qeyd edilən hər bir məqamların arxasında nə qədər nəhəng siyasətin, müdrikliyin dayandığını ortaya qoymaqdadır. Cənab Ali Baş Komandan bilirdi ki, düşmən sakit dayanmayacaq və onun məhv edilməsi üçün hər an hazır olmaq zamanın tələbinə, çağırışına çevrilmişdi. Azərbaycan heç vaxt işğal faltı ilə barışmayacaqdı və bu tarix - işğaldan azadolunma tarixinin başlanğıc nöqtəsi 2020-ci il, 27 sentyabr tarixinə təsadüf etdi.

Bu mənadan da çıxış edərək bildirək ki, cənab İlham Əliyevin həyata keçirdiyi son dərəcədə müdrik, uzaqgörən, balanslaşdırılmış siyasəti nəticəsində işğalçı Ermənistanın, mənfur düşmənin bu illər ərzində sinsisinsi həyata keçirdikləri təcavüzkar, məkrli planları alt-üst oldu. Bu baxımdan, İlham Əliyevin Qalib Sərkərdəlik fenomeni də həmin tarixdən başlanıldı. Prezident İlham Əliyev hələ Rusiyada dünyanın maliyyə və siyasi elitasının, beyin mərkəzlərinin toplaşdığı tədbirdə "Qarabağ Azərbaycandır və nida işarəsi!" deyəndə işğalçı Ermənistana və beynəlxalq aləmə mesajını verilmişdi. Hər zaman verdiyi vədə sadiq qalan dövlət başçımız, bu dəfə də vədinə əməl etdi, düşmən caynağından azad edilən torpaqlarımıza Qalib, Müzəffər və Böyük Sərkərdə kimi qədəm qoydu.

### ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi!

Bu xüsusda, bəzi mühüm nüanslara diqqət ayırmaq istərdim. 44 günlük zəfər yürüşündə döyüşlərin aparılması, taktikaların və strategiyaların müəyyən edilməsi, ordu birləşmələrinin hərəkət trayektoriyaları, əməliyyatların hazırlanması və s. tərtibi planlar birbaşa Ali Baş Komandan cənab İlham Əliyevin nəzarəti altında işlənilir və həyata keçirilirdi. O, Ordunun başında dayanan Sərkərdə olaraq düşmənə vurulan ağır, sarsıdıcı zərbələrin hər birində mühüm missiyasını həyata keçirməklə yanaşı, həm də diplomatik fəaliyyətini davam etdirdi, o cümlədən, dünyanın aparıcı nüfuzlu media qurumlarına Azərbaycanın apardığı haqq-ədalət işini çatdırdı. Bütün bu kimi ağır, məsuliyyətli işlərin, siyasətin öhdəsindən isə yalnız qətiyyətli, dəmir iradəli Lider, böyük strateq gələ bilərdi.

Söz yox ki, qələbəyə doğru atılan addımların hər birindən sonra növbəti atılacaq addımlar, qərarlar da düşünülürdü və bunların hər birinin yükü Böyük Sərkərdənin - Ali Baş Komandan cənab İlham Əliyevin möhkəm çiyinlərində dayanırdı.

Biz, tarixi qələbəmizdən sonra Onun azad olunmuş ərazilərimizə səfərlərini xatırlaya və orada verdiyi bəyanatlarını da vurğulaya bilərik. Cənab İlham Əliyev "Mən bura Ordum ilə gəlmişəm" ifadəsini bəyan etməsi ilə düşmənə mesaj verdi ki, artıq güclü, qüdrətli Azərbaycan Ordusunun qarşısını heç bir cəhdləri ilə ala bilmək mümkün deyil. 30 il boyunca dağıdılmış, viran qoyulmuş, talan edilmiş ərazilərimizin qısa müddətdə bərpası üçün də mühüm qərarlar verən cənab Ali Baş Komandan dünyaya onu da mesaj olaraq çatdırdı ki, Azərbacan xalqı və dövləti bütün çətinliklərdən, sınaqlardan qalib çıxmaq əzmindədir.

Prezident İlham Əliyevin və birinci Vitse prezident, xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş torpaqlarımıza səfərləri, əslində, Ali Baş Komandanımızın bir neçə il əvvəl səsləndirdiyi və yuxarıda vurğuladığımız "Qarabağ Azərbaycandır!" bəyanatının möhtəşəm nidası oldu.

Müzəffər Sərkərdəmiz işğaldan azad edilən doğma torpaqlarımıza bu haqq nidasının rəsmiləşdirilməsinin xoş müjdəsini verdi. Müzəffər Lideriyin ali təcəssümü: Ata vəsiyyətini yerinə yetirən qürurlu Övlad!

Prezident İlham Əliyev xalqımızın ən böyük arzularını gerçəkləşdirən Şəxsiyyət kimi, eyni zamanda Müzəffər Liderlik adını əbədi olaraq tarixə yazdı. O, son 200 ildə tarixi torpaqlarını ardıcıl şəkildə itirməyə məhkum edilmiş Azərbaycan xalqının milli mənliyini, mənəvi ruhunu və siyasi gücünü özünə qaytardı, tarixi ədaləti bərpa etdi. Məhz bu tarixi həqiqətləri incələdikdən sonra vurğulaya bilərik ki, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin ardıcıl və uğurlu siyasəti nəticəsində dövlətçilik ənənələrimiz yenidən dirçəldi və inkişaf etməyə başladı və eyni zamanda, bu gün Azərbaycan dövləti İlham Əliyevin Liderliyi sayəsində dünyada qalibiyyət və zəfərlər yazan, öz gücü ilə ərazi bütövlüyünü bərpa edən qüdrətli ölkə olaraq tanınmaqdadır. Cənab İlham Əliyev sübut etdi ki, heç bir qüvvə Azərbaycanı haqq yolundan, torpaqlarının işğaldan azad edilməsi uğrunda mübarizədən saxlaya bilməz. Bu dövrdə İlham Əliyev çox təzyiqlərlə üzləşdi. Lakin dövlətimizin rəhbəri onların hamısına qətiyyətlə, cəsarətlə sinə gərdi. O, siyasi peşəkarlıqla Azərbaycana qarşı beynəlxalq miqyasda diplomatik cəbhənin formalaşmasının qarşısını aldı. Və bütün bunların fonunda Qarabağ cəbhəsində Azərbaycan Ermənistanı yürütdüyü 30 illik işğalçılıq, talançılıq, varvarlıq, terrorçuluq siyasətini əməli şəkildə (!) cəzalandırdı. Xüsusilə, Şuşamızın işğaldan azad olunması münasibəti ilə Fəxri Xiyabanı və Şəhidlər Xiyabanını ziyarət edən cənab İlham Əliyev həm də ata vəsiyyətini yerinə yetirdiyini qürurla, şərəflə vurğuladı ki, Onun həmin ifadələrini məqalənin əvvəlində qeyd etmişəm. Bu, həm də belə bir qənaətə gələn həqiqətdir ki, Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev işağl altındakı torpaqlarımızın, xüsusilə də Şuşamızın azad olunmasında siyasi varisi cənab İlham Əliyevin möhtəşəm yer alacağını görürdü! Uzaqgörən və Əbədi Liderimizin Şuşa vəsiyyəti də onun azad olunmasından sonra xalqımıza çatdırıldı. Həqiqətən də bu böyük, nəhəng bir tarixi hadisə oldu və bu hadisənin canlı şahidləri olaraq bizlər nə qədər şərəfli tarixi dövrü yaşamağımızdan hədsiz qürur hissi duymaqdayıq. Bu hiss ölçüyəgəlməz dərəcədə nəhəngdir!

Dövlətçilik tariximizlə yanaşı, həm də dünyanın yeni tarixinə yazılan bu qalibiyyət simvolunda xalqımızın iki övladının - Ulu Öndər Heydər Əliyevin və Böyük Sərkərdə, Prezident İlham Əliyevin adlarının qızıl hərflərlə həkk olunması isə artıq danılmaz bir gerçəklikdir - ATA vəsiyyətinin və OĞUL vədinin yerinə yetirilməsi gerçəkliyi!

# YAP Səbail rayon təşkilatında Ulu Öndər Heydər Əliyevə həsr olunan videokonfrans keçirilib

*Videokonfransda Cocuq Mərcanlı kənd orta məktəbinin şagirdləri və səbailli məktəblilərı iştirakı edib*

***Səbail rayonu 50 nömrəli tam orta məktəb, Cocuq Mərcanlı kənd tam orta məktəbi və YAP Səbail rayon təşkilatının birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri, Yeni Azərbaycan Partiyasının yaradıcısı Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə videokonfrans keçirilib.***





Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbinin müəllim-şagird kollektivinin, Səbail rayonu ictimaiyyəti nümayəndələrinin, Bakı şəhəri üzrə Təhsil İdarəsinin rəhbər şəxslərinin, məktəb direktorlarının, ziyalıların, partiya veteranlarının, fəal gənclərin, məktəblilərin iştirak edib.

Konfransda ilk öncə, Azərbaycanın görkəmli dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edib. Konfrans iştirakçılarını, müəllimləri,



məktəbliləri səmimi qəlbdən salamlayan YAP Səbail rayon təşkilatının sədri prof. Şəmsəddin Hacıyev xalqımız üçün ən taleyüklü məqamlarda xilaskarlıq missiyalarını yerinə yetirən və misilsiz xidmətləri, gördüyü əzəmətli işlərlə Azərbaycan tarixinə adını qızıl hərflərlə əbədi həkk edən dünyaşöhrətli siyasətçi, fenomenal şəxsiyyət Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsi və şərəfli həyat yolu haqqında ətraflı danışdı. Heydər Əliyevin gördüyü işlər və həyata keçirdiyi missiyaları yalnız bir ölkə, bir millət çəçivəsində qiymətləndirməyin düzgün olmayacağını qeyd edən Ş.Hacıyev bildirib ki, cahanşümul dövlət xadimi olan Ulu Öndər bütün bəşəriyyətə Tanrı tərəfindən bəxş olunmuş nadir şəxsiyyət idi, çünki Heydər Əliyevin amalı bütün dünya üçün sülh, əməkdaşlıq, inkişaf idi. Vurğulandı ki, Heydər Əliyev fenomenal intellekti, biliyi, şəxsi insani keyfiyyətləri, yüksək peşəkarlığı, cəsarəti və zəngin həyat təcrübəsi sayəsində dünyada gedən proseslərə nüfuz edə bilən dahi siyasətçi və ölkəmizə rəhbərlik etdiyi həm Sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan üçün böyük xilaskarlıq missiyalarını yerinə yetirmiş dövlət xadimi kimi tarixdə əbədi qalacaqdır.

Ş.Hacıyev diqqətə çatdırıb ki, Ulu Öndər haqqında çoxlu kitablar, əsərlər yazılıb, filmlər çəkilib, lakin Heydər Əliyev şəxsiyyətinin əzəməti hər yeni tarixi araşdırmada yenidən kəşf olunur: "Ulu Öndərin ruhu bu gün şaddır, çünki qurub-yaratdığı şah əsəri Azərbaycan sözün əsl mənasında dünyaya günəş kimi parlayır. Ümummilli Liderimizin layiqli davamçısı, dahi Heydər Əliyev məktəbinin yetirməsi möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qəhrəman Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsində müstəqil Azərbaycanın yeni və şərəfli tarixini yazdı. Azərbaycan qüdrətli, müstəqil, dövlət kimi, qardaş Türkiyə ilə birlikdə regional güc mərkəzi kimi bütün dünyaya səs salıb. Vurğulandı ki, Ulu Öndər Heydər Əliyevin yolu və möhtərəm Prezident İlham Əliyevin siyasəti gələcəkdə Azərbaycana daha böyük uğurlar və yeni nailiyyətlər qazandıracaq".

Ulu Öndər Heydər Əliyev üçün zaman faktorunun olmadığını xüsusi qeyd edən Ş.Hacıyev bildirib ki, Azərbaycan xalqı Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçiliyimiz üçün misilsiz xidmətlərini əbədi yaşadacaq, əziz xatirəsini hər zaman böyük məhəbbət və ehtiramla yad edəcəkdir.

Videokonfransda Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov məktəblilərin iştirakı ilə bu məzmunlu konfransların təşkilinin Ulu Öndər Heydər Əliyevin zəngin dövlətçilik irsinin və nümunəvi həyat yolunun gənclər tərəfindən dərindən öyrənilməsi, eləcə də gənc nəslin təlim-tərbiyəsi, milli-mənəvi dəyərlərimizə sadiq vətəndaşlar kimi yetişdirilməsi üçün mühüm töhfə olduğunu qeyd edib. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, şərəfli həyat yolu idarəçilik, siyasət, dövlətçilik məktəbi və mənalı yaşamaq nümunəsi olan Ulu Öndər Heydər Əliyevin eyni zamanda yüksək intellekt və dahilik mücəssəməsi olduğunu vurğulayan H.Əsgərov diqqətə çatdırdı ki, Ulu Öndərimizin zəngin irsinin dərindən öyrənilməsi və öyrədilməsi Azərbaycan gənclərinin, gələcək nəsillərin ən müqəddəs və şərəfli vəzifəsidir.



Konfransda çıxış edən Səbail rayonu 50 nömrəli tam orta məktəbin direktoru Sədaqət Həsənova, Cocuq Mərcanlı kənd tam orta məktəbinin direktoru Zamin Həziyev və məktəbin ədəbiyyat müəllimi Aytən Xasaylı Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Azərbaycanın müstəqil dövlətçiliyi üçün əbədiyaşar xidmətləri haqqında məktəblilərə ətraflı məlumat veriblər. 44 günlük Vətən müharibəsində Azərbaycanın Şanlı Qələbəsindən fəxarətlə bəhs edən natiqlər "Qardaşlaşmış məktəblər" layihəsi çərçivəsində sıx əməkdaşlıq edən Səbail rayonu 50 nömrəli tam orta məktəbi və Cocuq Mərcanlı kənd tam orta məktəbi tərəfindən görülmüş işlər, YAP Səbail rayon təşkilatının dəstəyi ilə reallaşmış layihələr, o cümlədən Səbail rayonu ictimaiyyət nümayəndələrinin Böyük Qayıdışın rəmzi olan Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə və kənddəki hərbi hissəyə 2017-ci ildən etibarən dəfələrlə təşkil olunmuş səfərlər, ağacəkmə və digər humanitar aksiyalar, Cocuq Mərcanlıdan olan 18 nəfər məktəblinin 2019-cu ildə Bakı şəhərinə unudulmaz ziyarəti, eləcə də gələcəkdə nəzərdə tutulan birgə fəaliyyət istiqamətləri haqqında danışıblar.

Sonda Səbail və Cocuq Mərcanlı məktəblərinin şagirdləri tərəfindən yüksək vətənpərvərlik, Ümummilli Liderə olan dərin məhəbbət və ehtiram ruhunda səsləndirilən ədəbi-bədii kompozisiyia konfrans iştirakçıları tərəfindən maraqla dinlənilib, şagirdlərin yaradıcı ifaları alqışlanıb.

**R.HÜSEYNOVA**

# Ermənilərin Çarları hesab etdikləri Tiqran kimdir?



**2-ci Tiqranın Türk - Matay, Amaday və ya Əhəməni farsı olduğunu isbat edə bilərəm (tiqr-Dəclə çayının adından götürülüb).Tiqris isə sürətli ox deməkdir. Həmin dövrdə Dəclə çayı ətrafındakı kompakt yaşayan türkləri nəzərə alsaq və onların oxçuluq sənətində uğurlarını düşünsək, Tiqranın erməni olmasının heç bir ehtimalı yoxdur.**

### Daha aydın formada erməni yalanları

Midiya-Əhəməni dövlətlərinin tərkibində sabit dövr keçirtdikdən sonra, dövlətin dağılması ilə ermənilər Çarlıq yaratmaq fikrinə gəlirlər ki, öz uydurma mənbələrində buna nail olduqlarını yazırlar. Halbuki onların yaşadığı ərazi Bizans-Sasani arasında bölünmüşdü. Daha öncəsində isə onların uydurma çarları 2-ci Tiqran Selevkilər parçalandıqdan sonra Suriya ərazisinə işğalçı yürüşlər edib. Belə ki e.ə.140 da doğulmuş Tiqran əcdadları ilə bərabər Əhəməni-Midiyalı sərkərdə idi. Deməli bu köçəri qaraçı tayfa birliyi Tiqranı sahiblənir və keçmişə bünövrə atmaq istəyir amma anlamır ki, gecəqondu daxmaya bünövrə inşa etmək üçün əvvəlcə onu sökmək lazımdır. Tarixi yalanların az bilən ermənilər hər tarixi faktda özlərinə yer eləmə çalışır, ağlamalı soyqırımlar düşünürdülər. Məsələn 1453 İstanbul fəthində belə orada soyqırıma uğradıqlarını iddia edənlər də var. Yəni sevindirici haldır ki, onlar dövlət qurmaq eşqinə 10-cu əsrdə düşür. Bu fikir qaraçı tayfasının ağlına daha öncə gəlsəydi yəqin ki, alt-paleolit hətta Tanzaniyadakı ilk insanı da mənimsəyərdilər. Önümüzə dinozavr çapan erməni çarlarının portretini atardılar.

Onların bütün bu tarixi fantastika janrında yazılarına inad biz xalq olaraq tarixi çox dəqiq bilməliyik. Çünki cəbhədəki müharibə bitdi və əgər 2120 də 2020-ci il "erməni soyqırımı" yalanını eşitmək istəmiriksə biz tariximizi bilməyə məcburuq. Beləliklə biz bu nağılbaz tarixçilərə qarşı tarixi elə detallı bilməliyik ki, artıq onların calaq ata biləcəyi heç bir nöqtə qalmasın. Çünki tarix diplomatiyaya birbaşa təsir edir. Əsassız iddialar və qısa cavablar isə sübut olunmuş tarixi faktlar önündə yetərsiz qalacaqdır. Eyni zamanda bu məlumatların qloballaşması daha gərəkli bir məsələ kimi görünür. Belə ki, faktların akademik səviyyədə isbatı üçün daha davamlı proyektlər olmalıdır. Biz həm də bu yolla uğurlu bir şəkildə ermənilərin tarixə atdıqları calaqları kəsib ata bilərik.

***Zərdüşt Quluzadə***

# Bayram günlərində süni qiymət artımı nə ilə bağlıdır?- Ekspert açıqladı




"Bayram günlərində süni qiymət artımı tələbin artması ilə bağlıdır". Bu sözləri SİA-ya açıqlamasında Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov deyib.

Onun sözlərinə görə, bazar tələb və təklif aksiomu ilə işləyir: "Tələb artanda keyfiyyətsiz mal və xidmət meydana çıxır və qiymət artımı baş verir. Bu xüsusən də özünü turizm sferasında göstərir. Çünki əhalinin regionlara axımı baş verir. Təəssüflər olsun ki, başqa ölkələrə baxanda Azərbaycanda otellərdə qalma qiymətləri həddindən artıq bahadır. Xidmət də lazımlı səviyyədə deyil. Amma bununla bərabər yaxşı uyğun qiymət təklif edən və normal xidmət göstərən istirahət mərkəzləri də vardır. Cənab Prezident bütün iqtisadi yığıncaqlarda daim deyir ki, ölkədə süni qiymət artımı var. Lakin buna baxmayaraq, məsələ həll olunmur. Dövlətin bu işlərə nəzarət edən qurumu çox təəssüflər olsun ki, əlləri qolları bağlı bir vəziyyətdədir. Qanunlar imkan vermir ki, onlar müxtəlif monitorinqlər keçirsin. İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə xüsusi səlahiyyətlər verilməlidir və süni qiymət artımının qarşısını almalıdır. Süni qiymət artımı heç də o demək deyil ki, kənd kartofunun bazarda 80 qəpik olduğu halda 1 manata verilsin. Ölkədə azad bazar iqtisadiyyatı var. Kim necə istəyirsə qiymət təyin edə bilər".

Eyyub Hüseynov qeyd edib ki, süni qiymət artımı marketlərdə baş verir: "Qeyd edim ki, marketlər öz taxçalarını santimetrlərlə mal təchizatçılarına böyük pula satırlar. Həmin pullar vergidən yayınan nəğd alınan pullardır və heç bir yerdə maliyyə sənədlərində qeyd olunmur. Ona görə də istehsalçılar və mal təchizatçıları həmin o rüşvəti malların üzərinə qoyurlar. Təəssüflər olsun ki, marketlər üçün Nazirlər Kabinetinin heç bir qaydası yoxdur. Market şəbəkələrində böyük qeyri-qanuni pullar dövr edir. Son nəticədə bu da süni qiymət artımına gətirib çıxardır və istehsalçılar bundan əziyyət çəkirlər. Mütləq marketlərdəki bu məsələ həll olunmalıdır. Üstəlik marketlərə kim çox pul verirsə onun malını yerləşdirir. Bizim təqdiqat göstərir ki, xarici mal istehsalçılarına daha çox yer ayırırlar nəinki yerli mal istehsalçılarına. Xaricdən mal gətirənlərə 70% yer verirlər".

***Arzu Elsevərqızı***

# "Heydər Əliyev ideyaları Azərbaycanı daha böyük hədəflərə çatdıracaq"

*Belə bir deyim var ki, tarixi şəxsiyyətlərin nəhəngliyi zaman keçdikcə daha aydın şəkildə görünməyə başlayır. Çünki onlar uzaqgörən qərarları ilə öz millətinin gələcəyini müəyyən edərək bir növ zamanı qabaqlamaq missiyasını yerinə yetiriblər. Bütün ömrünü xalqının azadlığı və xoşbəxtliyi uğrunda mübarizəyə həsr edən ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı tarixi xidmətləri də illər ötdükcə daha aydın şəkildə görünməkdədir. Ölkəmizin bugünkü dinamik və hərtərəfli inkişafını, həyatımızın bütün sahələrində yüksəliş və tərəqqini müşahidə etdikcə Heydər Əliyevin böyüklüyünü və müdrikliyini daha dərindən dərk etmiş oluruq.*



**Elşad Mirbəşir oğlu**
**Millət vəkili, YAP İdarə Heyətinin üzvü, siyasi elmlər doktoru, Sosial Tədqiqatlar Mərkəzinin sədr müavini**

Xilaskarlıq missiyasını üstlənərək Azərbaycan xalqını ən ağır bəlalardan hifz edən, çox mürəkkəb gesosiyasi reallıqların hökm sürdüyü bir şəraitdə Azərbaycan dövlətini parçalanmaq təhlükəsindən qoruyan və bütün çətinliklərə, təzyiq və təhdidlərə sinə gərərərək "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" söyləyən ümummilli lider Heydər Əliyev hər bir azərbaycanlının qəlbində əbədi taxt qura bildi.

Müstəqilliyimizin ilk illərində hakimiyyəti qanunsuz olaraq qəsb etmiş AXC-Müsavat cütlüyünün səriştəsiz idarəçiliyi Azərbaycanı sözün əsl mənasında uçuruma sürükləyirdi. Ölkəmiz dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə şərtlər daxilində nəinki ölkənin inkişaf trendlərini müəyyən etmək mümkün deyildi, hətta gələcək mövcudluğumuz böyük bir sual altında idi. Belə bir məqamda yeganə nicat yolunu Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışında görən Azərbaycan xalqı onu təkidlə Bakıya, Azərbaycan adlı gəminin sükanı arxasına keçməyə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır, mürəkkəb və faciəvi vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Beləliklə, müdrik xalqımızın təkidli tələbi ilə Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə möhtəşəm qayıdışı baş tutdu. Bu tarixi dönüş olmasa idi, bəlkə bugünkü Azərbaycan da olmazdı. Qısa bir zamanda ölkədə vətəndaş müharibəsi təhlükəsinin, daxili və xarici bədxahların Azərbaycanı parçalamaq, dövlətçiliyimizi məhv etmək istiqamətindəki bütün cəhdlərinin qarşısı unikal siyasi taktikalarla alındı. Ümummilli lider öz qayıdışı ilə Azərbaycana sabitlik, təhlükəsizlik, dirçəliş və davamlı inkişaf gətirdi.

Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır. Yeni Azərbaycan Partiyasının yaranması tarixi zərurət idi. YAP Azərbaycanın müstəqillik tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlarla üz-üzə qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Ulu öndərin siyasi təcrübəsi, müdrikliyi, tarixi xidmətləri, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik nümunələri və öz xalqına olan sonsuz sevgisi Azərbaycanın mütərəqqi insanlarının onun ətrafında sıx birləşməsini təmin etdi. Ümumiyyətlə, Azərbaycanda siyasi təsisatların formalaşması prosesi 1988-ci ildən başlanan xalq hərəkatı gedişində özünü büruzə vermiş, 1990-cı ilin əvvəllərindən etibarən isə bir sıra siyasi təşkilatlar meydana gəlmişdir. Lakin yaradılan partiyalar ölkəni düşdüyü ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, hakimiyyətdə olan və bir-birini əvəz edən siyasi qüvvələr respublikadakı vəziyyəti daha da ağırlaşdıraraq ölkəni təhlükəli böhran vəziyyətinə çatdırdılar. Taleyüklü hadisələrin yaşandığı belə bir məqamda Azərbaycan ziyalıları ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və bu məqsədlə xalqın sınanmış lideri və müdrik oğlu Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. 91 nəfər Azərbaycan ziyalısının imzası ilə o vaxt Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri vəzifəsini tutan Heydər Əliyevə müraciət göndərildi. Həmin sənəd əslində, bütün xalqın arzu və istəklərini ifadə edirdi. Müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Heydər Əliyev xalqın müraciətini qəbul etsə də, onun Bakıya gəlməsinə o zamankı hakimiyyət manelər ciddi manelər törədirdi. Hətta o vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü torpaqlarımıza təcavüz edən düşmən Ermənistanla savaşmaq yerinə, xəyanətkar xislətinə uyğun olaraq, Naxçıvana hərbi desant göndərirdi ki, Heydər Əliyevi hakimiyyətdən devirsinlər. Beləliklə, 550 nəfərdən ibarət təşəbbüs qrupu Naxçıvana gedərək partiyanın təsis konfransını orada keçirməyə nail oldular.

Əlbəttə, Heydər Əliyevə olan bu inam və etimadın əsasları onun 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə qoyulmuşdur. Heydər Əliyev uzaqgörən, müdrik və dahi siyasətçi olduğunu hələ ölkəyə ilk dəfə rəhbərlik etdiyi həmin illərdə sübut etmişdir. Ulu öndər Azərbaycanda birinci dəfə hakimiyyətə gələndə ölkəmiz iqtisadi və mədəni tənəzzül dövrünü yaşayırdı. O zaman məhz Heydər Əliyevin gəlişi ilə cəmiyyət həyatının bütün sahələrində sürətli yüksəliş dövrü yaşandı. Həmin vaxt ulu öndərin qətiyyətli, cəsarətli və müdrik addımları, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq ona xalqın sevgi və rəğbətini qazandırdı. Əgər Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idisə, 1982-ci ildə ən qabaqcıl yerlərdə qərarlaşmışdı. Bütün bu amillər isə qədirbilən xalqımızın diqqətindən qaçmırdı və beləliklə, xalqımız o təlatümlü günlərdə xilaskar kimi məhz Heydər Əliyevin ətrafında sıx birləşməklə ölkəni uçurumdan xilas etdi.

Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranmış, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesinə start verilmişdir. O vaxta qədər vahid komandanlıqdan idarə olunmayan, müqavimət qabiliyyətini itirmiş və başıpozuq hərbi dəstələrdən təşkil olunmuş ordu Heydər Əliyevin həyata keçirdiyi təxirəsalınmız tədbirlərin nəticəsində Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrə çevrilir. Əlbəttə, torpaqları işğal altında olan ölkənin güclü ordusu olmalı idi. Bu reallıqdan irəli gələrək, müasir ordu quruculuğu strategiyasının reallaşmasına start verilir. Tam əminliklə deyə bilərik ki, 44 günlük Vətən müharibəsində qazandığımız şanlı zəfərin təməlləri məhz ulu öndər Heydər Əliyevin hərb sahəsində apardığı islahatlarla qoyulmuşdu.

Heydər Əliyevin son dərəcə gərgin və səmərəli fəaliyyəti nəticəsində ölkəmizin təbii sərvətləri və əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən milli mənafelərimizə uyğun şəkildə istifadə edilməsi təmin olunmuşdur. Onun böyük siyasi iradəsi və müdrik uzaqgörənliyi sayəsində əhəmiyyətli beynəlxalq layihələrə imza atılmış və onların həyata keçirilməsinə başlanmışdır. 1994-cü ildə sentyabrın 20-də imzalanan "Əsrin müqaviləsi" bu mənada xüsusi əhəmiyyət daşıyır. Müstəqilliyinin ilk illərindən etibarən iqtisadi tələtümlər içərisində boğulan Azərbaycan bu sazişin imzalanması ilə böyük tənəzzüldən xilas olaraq sürətli inkişaf yoluna qədəm qoydu. Azərbaycanın inkişafını gözü götürməyən bəzi xarici dairələr bu müqavilənin bağlanmasına ya açıq, ya da gizli maneələr yaradırdılar. Heydər Əliyev özünün müdrik siyasəti, mətin və cəsarətli addımları ilə Azərbaycan nefti birbaşa Ceyhan limanına çıxarıldı və burada yüksək tonnajlı tankerlərlə dünyanın istehlakçı ölkələrinə çatdırıldı. Bu, Azərbaycanın siyasi və iqtisadi qələbəsi idi. Ölkəmizin bugünkü inkişafında "Əsrin müqaviləsi"nin yeri ölçüyə gəlməzdir.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti dünyanın aparıcı ölkələri və beynəlxalq təşkilatları ilə milli maraqlara və uzaqgörən siyasi perspektivlərə söykənən münasibətlər qurmuşdur. Onun xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Ulu öndər vaxtilə demişdir: "Azərbaycan dünyaya Günəş kimi doğacaq". Həqiqətən də, bu gün ölkəmiz Prezident İlham Əliyevin və birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın simasında dünyaya bir Günəş kimi parlayır. 2003-cü ilin prezident seçkiləri ərəfəsində ümummilli liderimiz Heydər Əliyevin xalqa müraciəti zamanı ifadə etdiyi "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" müdrik kəlamı reallıqda tam təsdiqini tapdı. Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə apardığımız "Dəmir yumruq" əməliyyatı nəticəsində 30 il işğal altında qalan torpaqlarımız azadlığa qovuşdu, ərazi bütövlüyümüz bərpa olundu. Qarşıda isə bizi daha böyük hədəflər, məqsədlər gözləyir. Bu hədəflərə çatmağın yeganə qarantı isə xalq olaraq Prezidentimizin ətrafında sıx birləşmək və Heydər Əliyev ideyalarını gələcək nəsillərə ötürməkdir. Heydər Əliyev siyasəti uğurlu və xoşbəxt gələcəyimizin əsas təminatçısıdır.



# "Şuşanın işğaldan azad edilməsi milli qürur məsələsi idi"

***"Hər bir azərbaycanlının fəxarət yeri olan Şuşa şəhərinin 1992-ci ilin mayın 8-də Ermənistan tərəfindən işğal olunması hər birimiz üçün ağır sarsıntıya səbəb oldu". Bu sözləri SİA-ya açılamasında deputat Aydın Mirzəzadə deyib.***

Onun sözlərinə görə, Şuşanın işğal edilməsi Azərbaycan xalqının təhqir edilməsi, Azərbaycanın tarixinə, mədəniyyətinə vurulan ağır bir zərbə idi: "Çox təəssüf ki, Ulu Öndər Heydər Əliyevin 1987-ci ildə böyük siyasətdən uzaqlaşdırılması, Azərbaycan hakimiyyətinə bir-birinin dalınca Moskvanın dəstəyi ilə vətənpərvərlikdən və dövlət idarəçiliyindən uzaq olan şəxslərin gətirilməsi Azərbaycan ərazi bütövlüyü məsələsini təhlükə altında qoydu. Bundan istifadə edən həmçinin, keçmiş SSRnin resurslarını maksimum istifadə edən erməni millətçiləri bir-birinin ardınca torpaqlarımızı, ən əsası isə mayın 8-də Şuşa şəhərini işğal etdilər. Şuşa şəhərini qorumaq, düşmənə verməmək mümkün idi. Coğrafi vəziyyət onun işğal edilməsini mümkünsüz edirdi. Ancaq xəyanət, hazırlıqsız, dövlət işinə məsuliyyətsizlik bu işğala zəmin yaratdı. Azərbaycan uzun müddət torpaqlarını işğaldan azad edilməsinə ciddi hazırlıq görürdü. Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması, onun Azərbaycan dövlətçiliyinin əsasını qurması buna böyük bir zəmin yaratdı. Ulu Öndərin siyasətini Prezident cənab İlham Əliyevin böyük qalibiyyətlə davam etdirməsi bir çox problemlərimizin həllinə, o cümlədən torpaqlarımızın işğaldan azad edilməsinə böyük yol açdı. 44 günlük müharibə nəticəsində Azərbaycan torpaqlarını işğaldan azad etdi. Dağlıq Qarabağ problemini birdəfəlik siyasi gündəlikdən çıxartdı. Hər bir azərbaycanlı 8 noyabr 2020-ci ildə cənab Prezidentimizin canlı yayım vasitəsilə "Şuşa sən azadsan", "Şuşa işğaldan azad edildi" fikirlərini bildirməsi böyük sevincə səbəb oldu. Azərbaycan xalqının 200 il ərzində çiyinində olan ağır yükü götürdü. Bu ağır yükü Heydər Əliyev yolu, Prezident İlham Əliyevin siyasəti götürdü".

Deputat həmçinin qeyd edib ki, Şuşanın bərpa edilməsi birbaşa cənab Prezidentin diqqətində olan məsələdir: "Cənab Prezidentin bir neçə dəfə ora səfər etməsi və oranın bərpa edilməsi ilə bağlı tapşırıqlar verməsi və tapşırıqların icrasına nəzarət etməsi Şuşanın qısa bir zamanda bərpa ediləcəyini göstərir. Şuşa Azərbaycanın mədəniyyət mərkəzi elan edilir. Şuşada hər il beynəlxalq musiqi festivallarının keçirilməsi nəzərdə tutulur. Şuşa həmçinin Azərbaycanın dünya səviyyəsində tanınan bir turizm mərkəzinə çevriləcəkdir. Şuşada abadlıq işlərinin aparılması, onun təyinatına uyğun olaraq, mədəniyyət statusuna uyğun olaraq, tikililərinin aparılması, infrastrukturunun yenilənməsi gecəgündüz davam etdirilir. Füzuli-Şuşa yolunun çəkilməsi isə bu regionun konfiqruiyasını kökündən dəyişir. Eyni zamanda Füzuli-Şuşa yolundan məşhur İsa bulağına müasir yolun çəkilməsi mədəniyyət ocağımızın da bu gün hər bir kəsimizin seyr edə biləcəyi ünvana çevrilir. Şuşanın işğaldan azad edilməsi milli qürur məsələsi idi ki, Azərbaycan bunu edə bildi. 3 minə qədər öz canını qurban verən Azərbaycan şəhidi bu gün öz qanı ilə Azərbaycan torpaqlarını, qədim mədəniyyət məskənimiz olan Şuşanın üzərində üçrəngli bayrağın dalğalanmasını təmin etdi. Azərbaycan bundan sonra bir qarış torpağını belə düşmənə verməyəcək. Bu birmənalıdır. Bu hər birimizin qarşısında duran bir mənəviyyat, bir borc məsələsidir. Hər bir azərbaycanlı bunu edir və edəcəkdir".

***Arzu Elsevərqızı***

# “Əgər ermənilər minalanmış ərazilərin xəritəsini versələr...”

## SIA politoloq Samir Hümbətovun müsahibəsini təqdim edir:




***- Qarabağdakı 44 günlük Vətən Müharibəsi həm Azərbaycan, həm də türk dünyası üçün yeni reallıqlar yaradıb. Bu reallıqlardan çıxış etdikdə iki qardaş ölkə arasındakı əməkdaşlığın gələcək inkişafını necə dəyərləndirmək olar?***

- Qeyd etmək lazımdır ki, ikinci Qarabağ müharibəsindən sonra həm Qarabağ savaşının getdiyi müddət ərzində, həm də ondan sonrakı müddətdə artıq Cənubi Qafqazda geostrateji və geosiyasi reallıqlar dəyişməyə başladı. 27 sentyabr 2020-ci ilə qədər baş verən proseslər sonra daha geniş məcraya keçdi və Türkiyənin regionda, xüsusilə Azərbaycanda əhəmiyyəti daha da artmağa başladı. Müharibənin gedişatında belə bir siyasi vəziyyət yarandı ki, artıq Türkiyənin regionda əsas söz sahiblərindən birinə çevrilməsi prosesi başladı. Bu təkcə Cənubi Qafqazda deyil, eyni zamanda, Mərkəzi Asiyaya da öz təsirini göstərdi. Bu gün Mərkəzi Asiya dövlətləri, başda Özbəkistan və Qırğızıstan olmaqla digər ölkələr Qazaxıstan, Türkmənistan bu prosesə qoşulmağa başladı. Artıq biz 6 dövlətin birgə əməkdaşlığının nəticəsini görürük. Qarşıdakı dövrlərdə Turan birliyinin yaranması prosesi sürətlənəcək.

***- Zəngəzur dəhlizinin açılmasının Türk dünyasını birləşdirmək baxımından nə kimi əhəmiyyəti var?***

- Çox böyük əhəmiyyəti var. Türkiyə ilə Azərbaycanın, eyni zamanda Mərkəzi Asiyanın birləşdirilməsi hələ ki, mümkün olmayıb. Zəngəzur koridorunun açılmasından sonra, Çin sərhədindən başlamış İstanbuldan Yunanıstan sərhədinə qədər geniş bir ərazini əhatə edən koridor açılacaq ki, bu da birbaşa Türkiyə ilə türkdilli dövlətlərin əlaqələrinə kömək olacaq. Burada təkcə avtomobil yolu deyil, eyni zamanda dəmir yolunun çəkilişi də nəzərdə tutulur.

***- Hərbi Qənimətlər Parkının açılışının əsas mahiyyəti nədən ibarətdir? Xüsusən də gənclər bu parkın açılışından necə yararlana bilər?***

- Burada bir neçə məsələ var. 44 günlük Vətən Müharibəsində biz bunun şahidi olduq ki, heç nə eşitdiyimiz kimi deyil. Parkda olan texnikanın nümayiş etdirilməsi və 10 dekabr 2020-cı ildə Bakıda keçirilən möhtəşəm paradda bəzi vurulmuş tankların, sursatların nümayişi onu göstərdi ki, heç də Rusiya silahları dünyanın hegemon silahları hesab olunmur.

***- Bəs, ölkə gəncliyi bundan necə yararlanmalıdır?***

- Yeni yetişən gənc nəslin, xüsusən də paytaxda olan tələbələrin bu parka səfər etməsi İkinci Qarabağ müharibəsində bizim qazandığımız uğurlar nəticəsində əldə olunmuş hərbi texnikanın nümayişinə cəlb olunması gənc nəsildə yeni vətənpərvərlik ruhunu aşılayacaq. Gənclər bu ruhda tərbiyə olunmalıdır ki, baxın biz 44 günə 30 il ərzində bərkidilmiş müdafiə xəttini dağıdıb öz torpaqlarımızı azad etdik. Həmçinin, bu döyüşdə könüllü gənclərimiz də üstünlük təşkil edib.

***- Bu yaxınlarda bütün sosial şəbəkələrdə də yayıldı ki, Rusiyanın iki hərbi bazasının Azərbaycan sərhədində yerləşdirilməsi cəmiyyət tərəfindən narazılıqla qarşılanıb. Bu məqamlarla bağlı nə baş verir?***

- Bu tam rəsmi xəbər deyil. Mən tez-tez Rusiya xəbər saytlarını izləyirəm. Hələ ki, o məlumatın təsdiq olunması baş verməyib.

***- Bəs baş verəcəyi təqdirdə regionu nə kimi proseslər gözləyir?***

- Ermənistanın özündə normal hərbiçi olmadığı üçün bugün Rusiya hərbçiləri Ermənistanın həm İranla, həm də, Türkiyə ilə sərhədini qoruyurlar. Təbii ki, Azərbaycan artıq Ermənistanla öz sərhədini qurub. Həmin sərhədlərdə də Rusiya hərbçilərinin yerləşdirilməsi və Ermənistan sərhədinin qorunması prosesi mümkündür. Bu onların daxili əməkdaşlığına əsaslanır. Rusiya atdığı hər addımda qarşısında Türkiyənin olduğunu hiss edir.

***- Bəzi ikili standartlı mövqedən çıxış edən təşkilatlar, hətta böyük güclər tərəfindən Azərbaycana qarşı bir növ təzyiq var. Bu təzyiq nədən ibarətdir? Erməni əsirlərinin qaytarılması ilə bağlı baş verənlərin pərdəarxası məqamları nədir?***

- Burada dini təəssübkeşlik var. Fransanın, Amerikanın, Rusiyanın bəzi dairələrində dini təəssübkeşliyə çox fikir verirlər. İkinci bir tərəfdən də hər iki ölkədə erməni lobbisinin fəaliyyəti güclüdür və bu birmənalıdır. Onlar regionda Türkiyənin və Azərbaycanın güclənməyini istəməyərək, öz dövlət maraqlarını güdürlər. Bu təzyiqlərin nə Azərbaycan üçün, nə də Türkiyə üçün önəmi yoxdur. Türkiyə bugün də öz iqtisadi imkanlarını daha da genişləndirir və regionda əsas söz sahibidir. Yayılan məlumata görə, artıq Türkiyə İraqın şimalında böyük bir hərbi baza yaradır. Yəni, ABŞ nə qədər təzyiq etsə də, Türkiyə öz strateji hədəflərini gerçəkləşdirməyə çalışır.

***- Ermənistana qarşı təzyiq mexanizmi hansı istiqamətdə olmalıdır ki, artıq Azərbaycanla Ermənistanın regional əməkdaşlığı başlamalıdır. Siz bu haqda nə düşünürsünüz?***

- Biz müharibənin bitməsindən bu yana tarixi xronologiyaya baxsaq görəcəyik ki, Azərbaycanın hərbçiləri və mülki vətəndaşları daha çox minaya düşüb zərər çəkir. Bu onu göstərir ki, bu xəritə var. Bu xəritənin həm erməni hərbçilərində, həm rus sülhməramlılarında olması ehtimalı böyükdür. Erməni dairələrində də artıq reallığı qəbul edən siyasətçilər var. İndiyədək bunlar Qarabağ üçün çalışırdılar. Artıq Qarabağ da əllərindən çıxdı. Hesab edirəm ki, bundan sonrakı mərhələdə Ermənistanla Azərbaycan arasında normal dialoq qurulması başlaya bilər. Bunun birinci addımı xəritələrin Azərbaycana verilməsidir. İkinci addım Naxçıvana olan Zəngəzur dəhlizinin açılmasıdır. Üçüncü addım isə Qazaxın 7 kəndinin Azərbaycana qaytarılmasıdır. Eyni zamanda, Kərki, Mehri ərazilərinin qaytarılması və Dağlıq Qarabağda bəzi ərazilər var ki, onlar məhz Azərbaycanın nəzarətinə keçməlidir.

***- Ermənistanda hakimiyyət dəyişikliyi olarsa, bu Qarabağda əldə edilmiş razılaşmalara necə təsir göstərə bilər?***

- İndiki mərhələdə Ermənistanda hakimiyyət dəyişməsi ehtimalı olduqca azdır. Ermənistanda iki klan arasında mübarizə gedir: Qarabağ klanı və Ermənistan klanı. Erməni cəmiyyəti hakimiyyətin başında erməni klanını görmək istəyir, Qarabağ klanını yox. Robert Koçaryan da Qarabağ klanının təmsilçisidir. Ümumi götürəndə, onun Ermənistanda nüfuzu olduqca aşağıdır. Ermənistanda baş verən proseslərin kökündə Qarabağ klanının yaratdığı problemlər durur. Ermənistanda hakimiyyət dəyişərsə, bu Azərbaycan Ermənistan arasında gedən proseslərin başqa bir istiqamətə yönəldəcəyinə inamı olduqca azaldır.

***- Onlar populist çıxışlar etməklə kimə güvənirlər?***

- Onlarda cəmiyyət özü parçalanıb və pərakəndəlik hökm sürür. Bugün Ermənistanın köməyinə Qərb çatırsa, Ermənistan Rusiyanı atıb qərbdən yapışacaq.

***- “İsgəndər M” raketlərindən istifadə edilməsi ilə bağlı fikirləriniz nədir?***

- Bəzi siyasi dairələr hesab edir ki, Azərbaycanla normal münasibət saxlamaq lazımdır. Bəziləri isə Ermənistanla normal münasibət saxlamaq lazım olduğunu düşünür. 3-cü bir qrupun fikrincə isə, həm Ermənistanla, həm də Azərbaycanla normal münasibət saxlamaq lazımdı ki, Qafqazda nüfuz itirməsin. Təbii ki “İsgəndər M” raketlərinin verilməsi də hakimiyyətdən kənar mümkün deyil. Bu adi bir əşya deyil ki, oğurlanıb sərhəddən keçirilsin. Bu raketdirsə, hərbi texnikadırsa, təbii ki, müəyyən bir razılıqla həyata keçirilib.

***- Türkiyə və Azərbaycanın Ermənistanla münasibətlərini necə təsəvvür edirsiniz?***

- Biz desək ki, yaxın aylarda və ya illərdə onlar arasında tam səmimi əlaqələr qurulacaq, bu biraz inandırıcı olmaz. Qarabağ savaşında erməni tərəfi böyük itki verib. Bugün də onlarda qorxu hissi var. Müəyyən bir vaxtdan sonra münasibətlər normallaşsa da, istiləşmə çətin məsələdir. Ticarət əlaqələrinin genişlənməyi mümkündür. Biz onlarla yaxşı münasibətin olmağına inanmırıq. Erməni xisləti hər 20-30 ildən bir problem yaratmağa çalışırlar. Bu mənada onlar özlərini məzlum xalq kimi göstərirlər.

***-Yaxın dönəmdə Türkiyənin Ermənistanla sərhədləri açılması real görünürmü?***

- Onun proqnozu indiki vəziyyətdə mümkün deyil. Çünki Türkiyənin qoyduğu konkret şərtlər var. Türkiyə açıq şəkildə deyir ki, Qarabağ məsələsi tam həll olunaraq, Azərbaycanla münasibətlər tam düzəlməlidir. Ən əsası, 1915-ci ildə guya baş vermiş saxta “erməni soyqırımı” iddiasından Ermənistan əl çəkməlidir və bundan sonrakı mərhələdə biz Ermənistanla normal münasibətlər qura bilərik.

***- Qaregin Njdenin heykəlinin sökülməsi ilə bağlı fikirləriniz?***

- Qaregin Njde fasitlərə dəstək verən erməni olub. 9 mayda Rusiya tərəfi Xocalıda parad keçirmək istəyib. Çox maraqlıdır ki, Xocalıda da bu var. Əgər bu heykəl sökülməyibsə, Rusiya faşizm üzərində qələbə qazanıb amma faşistlərə dəstək verən bir erməni heykəli orada hələ də durur. Ruslar özləri fikirləşməlidir ki, bu heykəl burada olmamalıdır və Rusiyanın orda sülhməramlı mövqeyi olmalıdır. 5 ildən artıq Azərbaycan Rusiya ilə razılığa gəlməyəcək.

***- ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətinə toxunmaq istəyərdim. Bu məsələ ilə bağlı nə deyərdiz?***

- 2016-cı il aprel hadisələrindən sonra, yəni, Azərbaycanın erməni mifini qırdığı ilk vaxtlardan bu vəziyyəti düzəltmək və məsələni sülh yolu ilə həll etmək üçün Türkiyənin Minsk qrupunun həmsədrləri içərisində təmsil olunması təmin edilməli idi. Çünki, Fransada, Rusiyada və ABŞ - da müəyyən dairələr var ki, Qarabağın Azərbaycana qaytarılmasını birmənalı şəkildə istəmirdilər. Biz isə reallıqla hərəkət etdik. Qarabağ artıq Azərbaycanın ərazisidir. Hərbçilərimiz oranı qoruyurlar. Türkiyənin Minsk qrupunun həmsədr olması mütləqdir.

***- ABŞ Prezidenti Co Baydenin qondarma “erməni soyqırımı”nın tanınması ilə bağlı qərarından sonra Türkiyə Amerikaya hansı addımları ata bilər?***

- Gəlin, məsələni ikitərəfli müzakirə edək. Niyə ABŞ prezidenti bu ifadəni işlətdi? ABŞ-ın bu addımı məhz bu vaxtda atmağı o deməkdir ki, o, öz adamı olan Paşinyanın hakimiyyətdə qalması üçün əlindən gələni edir. ABŞ Prezidentinin “soyqırım” ifadəsini işlətməyi Paşinyana bir hədiyyə idi. ABŞ Paşinyanın vasitəsilə Rusiyanın mövqeyini sıxışdırmağa çalışır. İkinci bir tərəfdən, ABŞ Prezidentinin “soyqırım” ifadəsi işlətməsi onu göstərdi ki, Türkiyə ilə münasibətləri heç də tam müttəfiqlik səviyyəsində deyilmiş. ABŞ ancaq öz maraqlarını güdür. Təbii ki, Türkiyədə ABŞ-ın hərbi bazaları fəaliyyət göstərir. ABŞ-ın regionda olan nüfuz dairələri də yavaş- yavaş Türkiyənin nəzarəti altına keçə bilər.

***Ayşən Vəli***

# “Heydər Əliyev - Müasir Azərbaycanın banisi, gənclərin ilham mənbəyi”

*Bu mövzuda YAP Tərtər rayon təşkilatı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98 illiyini qeyd edib*




Yeni Azərbaycan Partiyasının qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98 illiyi münasibəti ilə YAP Tərtər rayon təşkilatı aparatında “Heydər Əliyev- Müasir Azərbaycanın banisi, gənclərin ilham mənbəyi” mövzusunda tədbir keçirib.

Tədbirdə rayonun təhsil, səhiyyə, mədəniyyət və digər təşkilatlarında çalışan gənc YAP üzvləri iştirak ediblər. Tədbir iştirakçıları öncə pandemiya qaydalarını gözləmək şərtilə Ulu Öndərin rayonun mərkəzi meydanında ucaldılmış abidəsi önünə gül-çiçək dəstələri qoyaraq xatirəsini ehtiramla anıblar.

Heydər Əliyev Mərkəzində davam edən tədbirdə YAP rayon təşkilatı Gənclər Birliyinin sədri Tunarə Məmmədzadə “Heydər Əliyev - müasir Azərbaycanın banisi, gənclərin ilham mənbəyi” mözusunda çıxş edərək Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dönəmlərdə Azərbaycan gəncliyinin firavan həyatı, təhsili, sağlamlığı, vətənpərvər ruhda böyüməsi üçün daim qayğı göstərməsindən danışaraq, bu gün ölkəmizdə möhtərəm Prezident İlham Əliyevin Ulu Öndərin gənclər siyasətini davamlı olaraq həyata keçirdiyini vurğulayıb.

Tədbirdə rayon Gənclər və İdman idarəsinin rəisi Emin Pənahov, Tərtər rayon Mərkəzi Xəstəxanasının feldşeri Fuad Xanlarov, Səhləbad kənd tam orta məktəbin müəllimi Aysel Ağazadə, Heydər Əliyev mərkəzinin əməkdaşı Nəcmiyyə Zeynalzadə, Umudlu kənd tam orta məktəbin müəllimi Mirvari Ələkbərli çıxış edərək, gənclərimizin Heydər Əliyev ideyalarına daim sadiqlik nümayiş etdirmələrindən, onların bu gün Prezident İlham Əliyevin ətrafında sıx birləşərək ölkəmizin xoş gələcəyə doğru addımlamasında ön cərgədə olmaqdan qürur hissi duyduqlarını qeyd ediblər. Bildiriblər ki, Azərbaycan xalqının Ümummilli Lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır!

Tədbirin sonunda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən videoçarx nümayiş etdirilib.

**R.KAMALQIZI**

# Şəmkir rayonunda Böyük Vətən müharibəsi veteranları ilə görüş keçirilib





***Yeni Azərbaycan Partiyası Şəmkir rayon təşkilatı, Şəmkir rayon İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəmkir rayon şöbəsinin birgə təşkilatçılığı ilə faşizm üzərində Qələbənin 76-cı ildönümü münasibətilə 1941-45-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının bir qrupu ilə evlərində görüş keçirilmişdir.***

Görüşlərdə YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev veteranları təbrik etmiş, tarixi qələbənin qazanılmasında Azərbaycan xalqının və qəhrəman həmvətənlərimizin böyük xidmətləri olduğunu bildirmişdir. O demişdir ki, həmvətənlərimiz istər ön cəbhədə, istərsə də arxada misilsiz döyüş və əmək rəşadətləri göstərmişlər. Rayon təşkilatının sədri, həmçinin Azərbaycanda yaradılmış milli diviziyaların şərəfli döyüş yolu keçməsindən, bir çox həmvətənlərimizin Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsindən danışmışdır.

Sonra F.Vəliyev veteranlara dövlət qayğısından söhbət açaraq demişdir ki, bu işdə ümummilli lider Heydər Əliyevin misilsiz xidmətləri vardır. Həmçinin, 9 May Qələbə Gününün müstəqil Azərbaycanda dövlət bayramı kimi qeyd olunmasını məhz ulu öndərin qəbul etdiyi müdrik qərarın nəticəsi kimi dəyərləndirilmişdir. Rayon təşkilatının sədri çıxışlarında 30 ilə yaxın işğal altında olan torpaqlarımızın 44 günlük Vətən müharibəsi nəticəsində azad olunmasının tarixi hadis ə olduğunu bildirib. O, qeyd etdi ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu, sözün əsl mənasında, tarix yazdı. “Dəmir yumruq” əməliyyatı nəticəsində əzəli torpaqlarımızın düşməndən azad edilməsi tariximizə qızıl hərflərlə yazıldı. Vətən müharibəsində əsgər və zabitlərimiz əsl qəhrəmanlıq nümunəsi göstərdilər. Böyük Vətən müharibəsinin iştirakçıları o illərin hər birimiz üçün əziz olduğunu bildirdilər.

Dövlət başçımızın həyata keçirdiyi mühüm əhəmiyyətli tədbirlər hesabına müharibə veteranlarının sosial müdafiələri getdikcə möhkəmləndirilir, yaşayış tərzləri daha da yaxşılaşdırılır. Veteranlarla vaxtaşırı görüşlər keçirilir və onlar yetişən gənc nəslə əsl qəhrəmanlıq təcəssümü kimi təqdim olunurlar. Veteranlar onlara göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına, həmçinin Qələbənin 76-cı ildönümü ərəfəsində onlarla belə görüşləri təşkil edənlərə, minnətdarlıqlarını bildirdilər.

**Rəfiqə**

# MEK-də “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” adlı lektoriya keçirilib



Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Mərkəzi Elmi Kitabxanasında (MEK) Heydər Əliyev lektoriyasının “Heydər Əliyev və Azərbaycanda kitabxana işi” adlı növbəti məşğələsi keçirilib. AMEA Mərkəzi Elmi Kitabxanasının İctimaiyyətlə əlaqələr şöbəsindən SİA-ya daxil olan məlumata görə, iştirakçılar öncə müstəqil Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin MEK-in foyesindəki büstünün önünə əklil qoyaraq Dahi Liderin əziz xatirəsini yad ediblər. Sonra MEK tərəfindən Ulu Öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümü münasibətilə hazırlanmış video izlənilib.

Lektoriyanı giriş sözü ilə MEK-in baş direktoru, professor Məmməd Əliyev açaraq Dahi Liderin respublikaya rəhbərlik etdiyi dövrlərdə gördüyü işlərdən, eləcə də kitabxana sahəsinə göstərdiyi xüsusi qayğısından, əvəzsiz xidmətlərindən söhbət açıb. Baş direktor qeyd edib ki, fenomen şəxsiyyət Heydər Əliyevin fəaliyyəti dövründə kitabxanaların hüquqi bazası möhkəmləndirilib və bu fəaliyyət hazırda cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. “30 ildən artıq işğal altında qalan torpaqlarımızda erməni vəhşiliyi nəticəsində mədəniyyət abidələrimiz, kitabxanalar məhv edilib. Həmin abidələr sırasında elm məbədi adlandırdığımız kitablar da var. Şuşa başda olmaqla işğaldan azad edilən torpaqlarımızda yeni infrastruktur layihələri həyata keçiriləndən sonra heç şübhəsiz ki, kitabxanalar, məktəblər, kolleclər, elmi-tədqiqat institutları və ali təhsil ocaqlarının açılacağı da istisna deyil” - deyə professor Məmməd Əliyev vurğulayıb.

Həmçinin, baş direktor qeyd edib ki, kitabxana işinə dövlət tərəfindən xüsusi qayğının bariz nümunələrindən biri də tərkibində 2 milyona yaxın kitabların qorunub saxlanıldığı MEK-in müasir standartlara cavab verən texniki avadanlıqlarla təchiz edilməsidir.

Tədbirdə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının direktor müavini Kəmalə Sarıcalinskaya əvəzolunmaz Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən danışıb.

BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekan vəzifəsini icra edən, filologiya üzrə fəlsəfə doktoru, dosent Ələmdar Cabbarlı, ADA Universiteti Kitabxanasının rəhbəri Elçin Məmmədov, BDU-nun Elmi Kitabxanasının direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent Nigar İsmayılova, “Elm” nəşriyyatının direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, Azərbaycan Dillər Universitetinin Elmi Kitabxana-informasiya Xidməti Mərkəzinin direktoru Cəmilə Əliyeva Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan dövlətçiliyinin bərpasında, qorunub saxlanılmasında misilsiz xidmətlərindən, Ümummilli Liderin xalqımızın rifahı naminə həyata keçirdiyi siyasi-iqtisadi islahatlardan, kitabxanaların qurulmasından və bu sahənin inkişafı üçün imzalanan Sərəncam və Qanunlardan, aparılan uğurlu islahatlar nəticəsində qazanılan nailiyyətlərdən söhbət açıblar. Qeyd edilib ki, bütün türk dünyasının böyük oğlu, fenomen şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının və kitabxana işçilərinin qəlbində əbədi yaşayacaqdır.

“Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir” kitaba belə dahiyanə dəyər verən Heydər Əliyev Məkkədən gətirdiyi “Qurani Kərim” kitabını Milli Kitabxanaya hədiyyə etmişdi” - deyən Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi, Milli Kitabxananın Kitabxana-İnformasiya xidməti və beynəlxalq əlaqələr üzrə direktor müavini Ədibə İsmayılova Dahi Liderin xatirəsinin Milli Kitabxanada da uca tutulduğunu, hər zaman yad edildiyini bildirib. Ədibə İsmayılova “Azərbaycanın görkəmli şəxsiyyətləri:Heydər Əliyev-Biblioqrafiya” adlı kitabı MEK-ə hədiyyə edib.

Sonda qonaqlar MEK-in xatirə kitabında öz ürək sözlərini bölüşüblər.

**Rövşən RƏSULOV**

# Hər şeyə yarımçıq yamaq Gültəkin Hacıbəyli...

*Bəzən baş verən hadisələrə münasibət bildirmirsən, “səbrli ol”, deyirsən. Ancaq bir də görürsən ki, dövlətinin, xalqının ünvanına elə bir sözlər, elə böhtanlar deyilir ki, bu yerdə sakit dayana bilmirsən. Xüsusilə də, son günlər sosial şəbəkələrdə “Milli Şura”nın qeybətxana şousunun rəzillər, satqınlar etalonu AXCP sədri Əli Kərimlinin şinelindən çıxmış, sabiq millət vəkili Gültəkin Hacıbəylinin ölkənin hər bir uğuruna kölgə salmağa çalışmasını görəndə susa bilmirsən. Baxın, bir ara neftin qiymətinin aşağı düşdüyünü görən bu bir medalın iki üzü olan G.Hacıbəyli sosial şəbəkələrdən “Gözünüz aydın, neft artıq 14 dollara düşüb, məni təbrik edin”,- deməsi və ona yaşına, “başına” hörmət etməyən “Milli Şura” deyilən əcinələr yuvasının sədri Cəmil Həsənlinin, “Bu son hədd deyil də, yoxsa təbrik edərdim” deməsini cavabsız qoya bilməməsi bir daha bu məfhumların nə qədər iyrənc, erməni üfunəti verən viruslar olduğunun şahidi olursan.*

Yaxud istər 2016-cı il aprel döyüşlərində, itərsə də də 44 günlük Vətən Müharibəsində şəhidlərlə bağlı dediyi fikirlər, doğurdan da nə qədər “ermənidən betər erməni” olduqlarını açıq göstərməkdir. AXCP sədri Əli Kərimlinin tapşırıq və sifarişlərini icra edən G.Hacıbəyli kimilərin fəaliyyətini cəmiyyətimiz ikrahla qarşılayır və birmənalı olaraq rədd edir.

### İkiüzlü, riyakar, reneqat Gültəkin Hacıbəyli...

Bir müdrük kəlamda deyilir ki, “Hansı yana gedəcəyini bilmirsənsə, hansı yolla getməyinin heç bir əhəmiyyəti yoxdur”. Siyasətin çirkin iş olduğu haqqında da belə deyirlər ki, “əslində siyasət çirkin deyil, onunla çirkin insanlar məşğul olanda çirkin olur”.

Bu gün dağıdıcı müxalifət düşərgəsində AXCP sədri Əli Kərimlinin “danışan dili” olan “Milli Şura”nın Koordinasiya Mərkəzinin üzvü Gültəkin Hacıbəylinin sosial şəbəkələrdəki həqiqətdən uzaq, şər-böhtan dolu çıxışlarını dinlədikcə həmin fikirlərin həqiqət olduğuna bir daha əmin oluruq. Əslində hər addımda ikiüzlülüyü, riyakarlığı ilə tanınan, parlamentin üzvü olanda dövlətin imtiyazlarından gen-bol istifadə edərək tam komfort şəraitində yaşayanda nədənsə bu xanım tamamilə başqa cür danışırdı. G.Hacıbəylinin o zamanlar başda Ə.Kərimli olmaqla dağıdıcı müxalifət düşərgəsinin başbilənlərini yerdən-yerə vurduğunu da heç kim unutmayıb. Ancaq elə ki, deputat seçilmədi, mandatdan məhrum oldu G.Hacıbəyli hətta öz keçmiş həyat yoldaşının da etiraf etdiyi kimi, 180 dərəcə dəyişdi. Siyasi virusa yoluxmuş bu xanım deputat olanda ancaq özü haqqında fikirləşirdi. Komfortu, lüks həyatı sevən Gültəkin Milli Məclisə deputat seçildiyi dairə ilə heç əlaqə saxlamır, oradakı əhalinin vəziyyəti ilə maraqlanmır, problemlərin həlli ilə məşğul olmurdu. Onun fikri-zikri yalnız və yalnız var-dövlət toplamaq və çirkli əməllərlə məşğul olmaq idi. Bir neçə il bundan əvvələ qayıdaraq o dövrlərdə mətbuatda yazılanlara diqqət etsək, hər şeyi bir daha açıq-aşkar görərik.

Belə ki, AXCP-nin orqanı olan “Azadlıq” qəzetinin 2005-ci il 2-3 oktyabr tarixli sayında “Azadlıq” blokunun 96 saylı Goranboy-Naftalan seçki dairəsindən vahid namizədi Elçin Rzayevin müsahibəsinə diqqət edək: “...İndi dairənin seçicilərini ən çox bir məsələ maraqlandırır. Onlar Gültəkin Hacıyevanın hansı üzlə yenidən namizədliyini bu dairədən irəli sürməsini başa düşə bilmirlər. Özünü “avropalı xanım” sayan Gültəkin Hacıyeva, görəsən Avropanın demokratik dəyərlərinə niyə saygı göstərmir? Dünənə qədər YAP-çı olan bu xanım birdən-birə dönüb oldu hər addımda söyüb təhqir etdiyi “Milli Şura”çı. Ancaq Azərbaycan cəmiyyəti ilə arasında dərin uçurum olan “Milli Şura”ya üzv olmazdan əvvəl G.Hacıbəyli sən demə müxalifət düşərgəsində təmsil olunan neçə-neçə təşkilatın qapısını döyüb. Getdiyi qapılardan qovulan G.Hacıbəyli nəhayət ki, antimilli ünsürlərin toplandığı “Milli Şura” da lövbər salıb. Necə deyərlər, qazan dığırlanıb qapağını tapıb.





Ancaq bu nankor və əxlaqsızlar bir şeyi unudurlar ki, hansı formada olursa-olsun xalqının qayğısına qalan və ən ağır anlarda belə daima xalqının qayğısını çəkən Azərbaycan dövləti həmişə öz vətəndaşının yanındadır. Və ermənidən betər olan Gültəkin Hacıbəyli və Cəmil Həsənli kimilər ikiüzlü, satılıb, satan, mənliklərini ayaqlar altına atan erməniqulbeçləridir. Hər ikisinin xisləti nankorluq, satqınçılıq olub. Və bu gün G.Hacıbəyli kimiləri tarix boyu cəmiyyətə qazandırdığı və qazandıracağı heç nə olmayıbdı. Ənənəvi əməllərini davam etdirmək üçün neyləməlidirlər? Böhtan, şər ataraq bu koronavirus əllərinə “göydəndüşmə” olduğundan “məharətlə yaralanmalıdırlar.

### O, mənəvi dəyərlərini itirməş əxlaqsız, sürüşkəndir

Bu yerdə G.Hacıbəylinin keçmiş qayınanası Nəhayət Məmmədova 14 ay gəlin olduğu müddətində ona qarşı böyük haqsızlıqlar etdiyini bildirərək, deyib ki, o, mənəvi dəyərlərini itirmiş əxlaqsız, sürüşkəndir: “Bu o Gültəkindir ki, doğma əmisinə “torba” tikdi. Onun əmisi İdris Hacıyevin adına “Emil” MMC açdıraraq, rayonda 20 hektar ərazidə gips karxanasına yiyələnmişdi. Sonra qazancı bölüşdürə bilmədiklərindən, Gültəkinin təzyiqi ilə Göranboy rayon icra hakimiyyətinin məhkəmədə qaldırdığı iddia əsasında İdris Hacıyev “cəzalandırıldı”, karxana əlindən alındı. Bundan sonra həmin ərazi Gültəkin Hacıyevanın atası Yunis Hacıyevin adına açılmış “Gülüstan” MMC-nin icarəsinə verildi. Doğmasına qarşı nankorluq, xəyanət edən Gültəkin xalqına da, Vətəninə də bu cür addımlar atar, necə ki, indi bu çirkin yoldadır. Gültəkin üçün müqəddəs heç nə yoxdur - nə Vətən, nə ailə, nə doğmaları. Onun məramı-məqsədi şəxsi mənafeləri üçün insanları şərləmək, kələk gəlmək və sair. O, mənəvi dəyərlərini itirmiş əxlaqsızdır. İkiüzlü, sürüşkən, xain, anormal G.Hacıbəyli elə Əli Kərimli, Cəmil Həsənli kimi satqınların, ikiüzlülərin yanında olar. Belələri ən ağır cəzaya məhkumdur”.

Bax, simasız, satqın, əxlaqsız buna deyərlər. Doğrudan da, qadının rezil olması bədbəxtçilikdir. Çamura batmış G.Hacıbəyli pula görə həya nə demək olduğunu belə anlamır. İndi də G.Hacıbəyli, guya xalqın “dərdinə yanır”.

### Gültəkin Hacıbəyli ənənəvi “missiyasını” davam etdirir

Bəli, elə maraqlısı da budur ki, istər seçkiəvvəli, istərsə də seçkidən sonra dələduzluq “missiyasına” “sadiq” qalaraq “demokratiya boğulur”, “haqqınızı tələb edin” çağırışları etməklə bir daha simasızlığının göstərməkdədir. Belə olan halda, soruşmaq istərdik ki, nankor deputat seçildin dövrlərdə demokratiya boğulmurdu, indi bu gün belə böhtan deməklə özünü düşərgə sakinlərinin qarşısında “təmizə” çıxarmaq istəyirsən?. Ancaq bir anlığa G.Hacıbəylidən soruşmaq istərdik ki, “demokratik” anlayışın nə demək olduğunu başa düşürsənmi? Əgər başa düşsəydin, o zaman icazəsiz mitinqlər çağırışı etməzdiniz. Bir də G.Hacıbəyli kimi “demokratlar” anlamalıdır ki, öz vətəndaşlarının rahat yaşamasına xüsusi diqqət və qayğı ilə yanaşan dövlətimiz müxalifətin icazəsiz mitinqlərinin qarşısını alırsa və onları insanları narahat etməyə qoymursa, sizcə, bu, demokratiyanın pozulmasıdır? Bir də soruşmaq istərdik Ə.Kərimli, A.Hacılı, G.Hacıbəylə, C.Həsənli, Leyla Yunus və bu kimi dələduzlar müəyyən qərb diplomatik nümayəndəliklərinə yalan məlumatlar verməklə nəyəsə nail olacaqlar. Bu mümkün deyil! Çünki Azərbaycan hüquqi dövlətdir, hər gəs də qanunlara riayət etməlidir.

Görünür, G.Hacıbəyli hələ çox havalanacaq, çünki o, Əli Kərimli kimi satqın şinelindən çıxmış rəzil, keçmiş qayınanasının dediyi kimi- əxlaqsız, satqın və cinayətkardır. Və ona görə də hamını satqın adlandırır. Bu yerdə kor-kora kor deməsə, doğurdan da bağrı çatlar. Bəlkə utanasan. Utanmağa üz olarsa. Sosial şəbəkələrin daimi klenti G.Hacıbəyli dünən iqtidarçı, bu gün müxalifətçi, sabah heç kim olmadığını bir oturub düşünəsən? Adamın yazığı gəlir. Bunu anlaya bilməzsən. G.Hacıbəylinin keçmiş qaynanasının dediklərini eşidəndə bir daha bu qadının nə qədər mənəviyyatsız və satqın olduğunnu şahidi olursan.

### Bəs müxalifətin seçdiyi bu yolun sonu varmı?

Var - uçurum, xalqın nifrəti, tənəsi! Və bu gün cəsus, minsifətli G.Hacıbəyli bütün bunlardan niyə ibrət dərsi almır?. Bəlkə elə zənn edirsən ki, Leninin oktyabr inqilabı kimi, nəyəsə nail olacaqsınız?. Doğurdan da, çox abırsız və mənəviyyatsınız. Həyasızlıq bu qədər də olmaz. Amma nə Əli Lenindi, nə də sən “demokrat”. Hər ikiniz və özünün kimilərin bir adı var: NANKORLAR!

Çünki sabit və dinc ölkədə hər kəs öz imkanlarına uyğun güzərana sahibdir. İslahatlar dövrünün faydasını öz həyatında hiss etməyə başlayan orta statistik vətəndaş dövləti özününkü sayır. Ölkə rəhbərinin islahatlar paketindən real fayda götürən sadə vətəndaş sabahı gözləyir.

G.Hacıbəyli kimilər isə öz şəxsi ambisiyalarının düşünür.

Beləliklə, sözümün canı ondadır ki, bu siyasətə qoşulan sosial şəbəkə quldurları heç əslində siyasətin nə demək oldduğunu belə anlamırlar. Çünki yolları azıblar. Bax, elə bəla də bundan sonra başlayır. Qudurub quduzlaşırlar. Nəticədə də nə cəmiyyət, nə də ictimai rəy belələrini qəbul etmir. Çünki hər kəsə çox gözəl bəllidir ki, G.Hacıbəyli kimi üzüdönüklərdən, yolların azanlardan fərli adam olmaz...

**Rəfiqə HÜSEYNOVA**

# “Paşinyan bu istiqamətdə qəti addımlar atmaq istəmir”



“10 noyabr sazişindən irəli gələrək və daha sonra Moskvada üçtərəfli görüşdə kommunikasiyaların açılması və iqtisadi qaydaların bərpa olunması ilə bağlı tərəflər razılığa gəlmişdilər”. Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Vüqar Əhmədov deyib.

Onun sözlərinə görə bu istiqamətdə demək olar ki, ən fəal iş aparan bölgədə Azərbaycandır: “Təsadüfi deyil ki, ölkə başçısının da Qarabağa son səfərində bu kommunikasiyaların açılması məsələsindən irəli gələrək Zəngəzur dəhlizinin açılması məsələsi üzərində də öz fikirlərini bildirmişdir və bu məsələnin baş tutacağını qətiyyətlə söyləmişdir. Hiss olunur ki, həm Rusiya, həm də Ermənistan tərəfində bu məsələlərin müəyyən qədər ləngidilməsində mövqe nümayiş etdirirlər. Nəzərə almaq lazımdır ki, Ermənistanda indi hal-hazırda seçki hazırlığı gedir və ola bilsin ki, yenidən seçilməyə çalışan Ermənistanın baş naziri Nikol Paşinyan bu istiqamətdə bir o qədər də qəti addımlar atmaq istəmir. Çünki Ermənistan yeni müharibədən çıxıb, Ermənistan cəmiyyətində bu məsələyə qarşı əks mövqe daha güclüdür. Əlbəttə ki, Rusiyanın da bu istiqamətdə də öz maraqları var”.

Ekspert həmçinin qeyd edib ki, Rusiya çalışır ki, Qarabağda olan ermənilər öz nəzarəti altında saxlasın: “Bundan irəli gələrək Rusiyaya maraqlı deyil ki, qısa müddət ərzində həm Qarabağdaki ermənilər, həm də Ermənistanın Azərbaycanla və Türkiyə ilə kommunikasiya əlaqələri bərpa olunsun, gediş-gəliş yaransın. Çünki bunların reallaşacağı təqdirdə Rusiya həm sülhməramlı missiyanı yerinə yetirən bir ölkə kimi müəyyən qədər proseslərdən kənarda qala bilər, rolu zəifliyə bilər. Paşinyanın yenidən seçilmə şansı daha çoxdur. Zəngəzur dəhlizin açılmasında Azərbaycanın mövqeyi qətiyyətlidir. Rusiya bu məsələdə bir o qədər maraqlı deyil ki, Azərbaycan Türkiyə və Ermənistan arasında ümumiyyətlə kommunikasiyaların açılsın və əlaqələr genişləndirilsin. Dediyim kimi bu Rusiyanın Ermənistanda Qarabağda bir vasitəçi rolunu azaldılmasına xidmət edir. Düşünürəm ki, iqtisadi inkişaf baxımından, kommunikasiya nəqliyyat qovşağının yaradılması baxımından bütün tərəflər üçün xeyirli olduğuna görə, bu məsələdə ortaq məxrəcə gələcəklər”.

**Arzu Elsevərqızı**



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb.*

# Ailəni kiminlə qurmalı: Sevdiyimizlə, yoxsa təklif olunanla?

**Oğul: "Belə evlənmək olar? Sevgisiz, filansız..."**

**Ata: "Sonra sevərsən də..."**

Bu dialoqu oxuyanda oxucularımız yüksək ehtimalla bildilər ki, hansı filmdən sitatdır. Hamımızın sevimlisi "Əhməd haradadır?" filmi və ata-ananın Əhmədi evləndirmək cəhdi maraqlı hadisələrin cərəyan etməsinə səbəb olur. Həyat yoldaşımızı necə seçək və bu işdə valideynlərin müdaxiləsi hansı dərəcdə olmalıdır? Bu dəfə bu mövzudan bəhs edirik.

## Həyat yoldaşımızı necə seçirik?

Bütün insanlar həyatları boyunca öz yarını axtarır. Həyat yoldaşı seçimində nə qədər diqqətliyik, gələcək uşaqlarımızın atasını və ya anasını hansı kriteriyalara görə seçirik və seçimimiz bizə nə vəd edir? Aramızda öz seçdiyi insanla ailə quranlar da var, valideyninin seçdiyi insanla həyatını birləşdirən də. Bir çoxumuz isə, yaşımızın ötməsini düşünmədən, hələ də öz yarımızı axtarırıq. Başqaları isə fikirləşir ki, görəsən öz yarımla təsadüfən qarşılaşsam, onu necə tanıya bilərəm.

Psixoloqlar bunu çox dəyərli bir əşyasını itirənin onu hər addımda axtarmasına bənzədir. Tutaq ki, sizə çox əziz olan papağınızı itirmisiniz. O qırmızı rəngdədir və siz qarma-qarışıq, dağınıq evdə sadəcə qırmızı rəngli əşyalara adaptasiya olursunuz, gözünüzə sataşan hər qırmızı rəngli əşyanı öz papağınız bilib ona doğru gedirsiniz və o olmadığını görürsünüz. Öz yarını axtaran da bu cür olur. Qarışıq, böyük dünyada öz yarını axtarır, axtarır, bəzən bənzərini görür, yaxınlaşır, o olmadığını görür və yenə axtarır.

Sağlam bir ailə həyatı yaşaya bilmək üçün ruh əkizimizi, yarımızı tapmağımız olduqca əhəmiyyətlidir. Gələcək həyat yoldaşımızla eyni şeylərdən zövq almasaq, oxşar zövqlərə sahib olmasaq, onda bu, bizim ailə həyatımıza da təsir edəcək. Zamanla kiçik uyğunsuzluqlar böyüyəcək, ailədə narazılıqlar yaradacaq. Narazılıqlar isə getdikcə böyüyəcək, nifaq yaradacaq. Doğru seçilməyən həyat yoldaşı ilə ən sonunda yolumuz məhkəmədə ayrılacaq.

## Qadınlar həyat yoldaşını necə seçir?

Qadınlara gəlincə, qadın var ki, gələcəkdə maddi sıxıntı çəkməmək üçün imkanlı ər axtarır, qadın var ki, həyatı boyunca arxalanacağı, güvənəcəyi bir kişi axtarır, qadın var ki, heç bir təmənna güdmədən bir ömür gözlərində sevgi görəcəyi kişi axtarır. Beləcə, hərə həyat yoldaşını bir cür seçir.

Son yüz ildə işləyən qadınların sayının artması sevib-evlənmə hallarının da artmasına səbəb oldu. İndi qızların çoxu əvvəlki kimi valideynlərin razılığı, göbəkkəsmə, uzaqdan görüb-bəyənmə ilə ərə getmir. Əksəriyyəti istədikləri, könül verdikləri insanla həyatını birləşdirə bilir. Düzdü, ailə seçimə müdaxilə edir, fikir bildirir, amma daha çox qızın fikri vacib hesab edilir. Bizim cəmiyyətin atalarında, analarında bu fikir formalaşıb: "Bir ömür boyu onunla sən bir yerdə yaşayacaqsan, özün fikirləş".

Lakin hələ də zorla evləndirilən, hətta tanımadığı birisi ilə ailə həyatı qurmağa məcbur edilən gənclər var. Əksər hallarda, bu, hansısa vəzifəli və imkanlı bir şəxslə qohum olmaq, onun imkanlarından bəhrələnmək istəyən valdeynlərin günahı ucbatından olur. Yeni, övladlarının xoşbəxtliyi üzərində özlərinə karyera qurmaq istəyən valideynlər də az deyil.

## Amerika qadınları həyat yoldaşını necə seçir?

Qadınlar hansı hisslərə ehtiyac duyursa gələcək həyat yoldaşlarını da bu hisslərini cəmləşdirən birinin timsalında seçir. Amerikanın Texas Universitetinin apardığı bir araşdırma nəticəsində məlum olub ki, qadınlar evlilik məsələsində və gələcək həyat yoldaşı seçimində bir qədər iddialıdırlar. Araşdırmada bildirilir ki, qadınlar hər şeyi birdən tələb edir. 120-dən artıq qadının qatıldığı sorğunun nəticələrinə görə qadınlar gələcək həyat yoldaşlarını bu göstəricilərə əsasən seçirlər:

-Sağlam genetikası olmalı;
-Maddi vəziyyəti normal olmalı;
-Yaxşı görünüşə sahib olmalı;
-Romantik olmalı;
-Ailəcanlı olmalıdır.

Qeyd edək ki, bu institutun bundan öncəki araşdırması da qadınlar arasında idi və o araşdırma da çox maraqlı nəticələr əldə etmişdi. Həmin araşdırmanın tərkibində keçirilən sorğuda 94 nəfər qadın iştirak etmişdi və onlar gələcək həyat yoldaşının uzun müddətli münasibət fikrində olmasını və maddi gəlirinin yaxşı olmasını istədiklərini demişdilər.

## Kişilər həyat yoldaşını bu xüsusiyyətlərinə görə seçir

-İlk növbədə qadının sədaqətli və ağıllı həyat yoldaşı olub-olmayacağını düşünürlər. Bu, evlilik üçün ən əsas şərtdir.

-Qadından gözəl uşaqları olub-olmayacağını düşünür- Əksər kişilər görüşdüyü qadının xarici görünüşünə baxaraq gələcək uşaqlarının fiziki xüsusiyyətlərinin necə olacağını anlayırlar.

-Qadının göyçək və sağlam olması əhəmiyyətlidir - bir ömür boyu yanında sağlam və gözəl qadın görmək istəyi güclüdür.

-Əxlaqını qoruyan qadınları sevirlər- geyiminizə və davranışınıza baxaraq sizin belə biri olub-olmadığınızı müəyyən edirlər. Geyim tərziniz fiziki xüsusiyyətlərinizə və xarakterinizə uyğun deyilsə, özünü dərhal büruzə verir.

-Şikayəti sevmirlər - Kişinin soruşduğu hər suala şikayət cümləsi ilə başlayan qadınla heç bir kişi əlaqəsini davam etdirmək istəmir. Çünki kişilər həyatı olduğu kimi qəbul edirlər və qətiyyən şikayəti sevməzlər. Sizin hadisələrə yanaşmanızdan ömür boyu hansı xasiyyətdə olacağınızı anlaya bilərlər.

-Kişilər onu bəyəndiyinizi ilk 20 saniyədə anlayır. Sizin baxışlarınız, əlləriniz, danışıq tərziniz sizin haqqınızda hər şeyi ona "danışır".

## Məntiq evliliyi nədir?

Bəzi kişilər, gələcək uşaqlarını yaxşı tərbiyə edə biləcək qadın axtarır, bəzi kişilər bir ömür boyu güvənəcəyi, sirdaş olacağı qadın axtarır, bəzi kişilər isə ömür boyu aşiq ola biləcəyi bir qadınla evlənmək istəyir. Cəmiyyətimizdə maddi vəziyyətini düzəltmək üçün maddi imkanı yaxşı olan ailədən qız almaq arzusunda olan gənclər də az deyil.

Aramızda elə insanlar var ki, evlənəndə sevgi, eşq, məhəbbət kimi məsələlərə görə evlənmir, sadəcə, "evlənmək xatirinə" evlənir. Bəzən "məntiq evliliyi" dediyimiz evliliklər də mümkündür. Bu zaman evlənənlər bir-birinin sosial vəziyyətinə, olduğu mövqeyə və yaxud da digər göstəricilərə görə evlənir.

Gözümüz önünə məntiq evliliyi edən bir cütlüyün toy mərasimi gəlir, toyun səbəbkarları sanki rəsmi tədbirdə oturublar, ciddi, quru. Səmimiyyət yox, eşq yox, sevgi yox. Yeni qohumlar bir-birinə yaddır, hərə öz qohumu ilə bir tərəfdə oturub toyun bitməsini gözləyir.

Yeni evlənənlər isə gələcək həyatlarında bir-birindən asılı olmayacaqlar, onlar yalnız axşamlar evdə olurlar, qadın öz rəfiqələri ilə, kişi öz dostları ilə gününü keçirir. Heç bir tərəf bir-birini qısqanmır, çünki evlənəndə aralarında bu cür münasibət olmayacağını artıq qərarlaşdırıblar. Onların evliliyi bir şirkətin təsis edilməsinə bənzəyir.

## Sosioloq: Valideynlərin evləndirdiyi gənclər bədbəxt olur?

Sağlam Cəmiyyət Hərəkatının eksperti, sosioloq Lalə Mehralı deyir ki, informasiya bolluğu zamanında yaşamaq bəzi ənənələri sıradan çıxarıb: "Çox vaxt deyirlər ki, valideyn heç bir işə qarışmasın, uşaqlar kiminlə istəyir evlənsinlər əks halda ailə dağılacaq. Amma təcrübə göstərir ki, valideynlərin xeyir-duası ilə evlənən gənclərin çoxu bir ömür boyu bir yerdə xoşbəxt olublar. Eləcə də, özləri seçib evlənənlərin tezliklə boşandığı haqda da xeyli faktlar var. Burada hər iki məqam birləşdirilərək orta yol tapılmalıdır- gənclər bəyəndiyi tərəf-müqabillə ata-anasının razılığı ilə evlənsə yaxşı olar".

Psixoloqun sözlərinə görə əvvəl gənclər düşünürdü ki, valideynlər daha yaxşı bilir, amma indi vəziyyət dəyişib: "İndi gənclər daha çox bilir, daha çox informasiya alır. Təbii ki, psixoloji problemlərlə də rastlaşır. Tanımadığın şəxslə bir yerdə yaşamaq hər iki tərəfdən çətindir, bir-birlərindən çəkinir, bəzən adi sözün deyilişi tərəflərin xarekterinə uyğun olmayan bir halda səslənir və bu hal ailədə söz-söhbətə gətirib çıxarır. Bu isə uzun sürmür, çünki bir ömrü maska altında yaşamaq mümkün deyil. Valideynlərin təklifi və təkidi ilə evlənən gənclərin özünün müstəqil fikir yürütmə, müstəqil yaşama və liderlik xüsusiyyətləri zəif olur, onlar kiminsə mənəvi dəstək olanda yaşamağı çətin hesab edirlər. Eynilə həyat təcrübəsi olmayan gəncin həyat yoldaşını seçməsi də əksər halda uğursuz nəticələnir. Ona görə də ən yaxşısı hər iki amili nəzərə almaq lazımdır, qızla oğlan bir-birini tanımalı, sevməli, valideynlərin razılığı ilə ailə həyatı qurmalıdırlar".

## "Yüz ölçüb, bir biçmək" lazımdır

Yüzilliklərdir valideynlər öz övladı üçün qız bəyənib - bu, qədimdə qadın hamamında, qız toyunda olurdu, ana gördüyü qızları öz oğluna yaraşdırır, birinə elçi düşmək fikrində qərar verir, fikrini oğluna bildirir, seçdiyi qızı nişan verirdi. Evlənəcək olan oğlan qızı uzaqdan görür, bəyənərdi. Onlar yalnız toy günü bir-birinin üzünü görərdilər, amma bir ömür boyu xoşbəxt yaşayardılar.

Zaman hər şeyi dəyişikliyə sürüklədiyi kimi insani dəyərləri də dəyişir, indi illərlə nişanlı qalan, bir-birini yaxından tanıyan gənclər evlənir, 2 aydan sonra boşanır. Dünən "ruh əkizim", "yarım" dediyimiz insan bu gün bizə yadlaşır, ögey olur. İndi ailə dediyimiz məfhum müqəddəslikdən uzaqlaşmaqda, hər gün yeni-yeni dəyişikliyə məruz qalmaqdadır. Bütün hallarda həyat yoldaşı seçimində maksimum diqqətli olmaq, "yüz ölçüb, bir biçmək" lazımdır. Sonra peşman olmamaq üçün...

***Nübar İsmayılova***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

Son səhifə

8 may




## 1 milyard dollarlıq yarış

Tiger Voods, hazırkı aktiv idman ulduzları arasında ilk milyarder olmağa ən yaxın idmançıdır. Ondan sonra mükafata ən yaxın idmançı isə Ronaldodur. SİA-nın xarici mətbuata istinadən verdiyi məlumata görə, budur, "ilk milyarder" olmaq üçün yarışan ilk üç idmançı.

- Tiger Voods - illik gəlir 62,3 milyon dollar, cəmi sərvət 800 milyon dollar. 1 milyard dollara çatması üçün təxmini vaxt 3.2 il.

- Kristiano Ronaldo - 105 milyon dollar, cəmi sərvət 500 milyon dollar. 1 milyard dollara çatması üçün təxmini vaxt 4.8 il.

- Roger Federer - illik gəlir 106.3 milyon dollar, cəmi sərvət 450 milyon dollar. 1 milyard dollara çatması üçün təxmini vaxt 5.8 il.

*Zərdüşt Quluzadə*

## "Real" Hazardı bu qiymətə satır




***Madrid "Real"ı ulduz futbolçusu Eden Hazardı satmağı planlaşdırır. İspaniyanın nüfuzlu idman nəşrinin yazdığına görə, Madrid klubu belçikalı yarımmüdafiəçini 50 milyon avroya satmağa hazırdır. Klubun bu satışdan əldə edilən gəlirlə PSJ-nin futbolçusu Kilian Mbappeni transfer etmək istədiyi bildirilib.***

"Marca" da Hazardın transferə çıxarıldığını yazıb. "Real"ın 30 yaşlı futbolçunun oyun səviyyəsindən razı olmadığı bildirilib. Onun "Çelsi" ilə Çempionlar Liqasının yarımfinal oyunundan sonrakı davranışları da klubun bu qərarı verməsində rol oynadığı qeyd edilib. Hazard "Real"a 2019-cu ildə "Çelsi"dən keçib.

# İyunun 1-dən metrolar açılır?

***Son günlər sosial şəbəkələrdə iyunun 1-dən etibarən Bakı metrosunun sərnişinlərin üzünə açılması ilə bağlı mütəmadi məlumatlar yayılmaqdadır. Məsələ ilə bağlı "Bakı Metropoliteni" QSC-yə müraciət etdik.***




Qurumun mətbuat katibi Bəxtiyar Məmmədov SİA-ya açıqlamasında bunları deyib: "Metroların açılması Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın səlahiyyətlərinə daxildir. Mövcud vəziyyətin qiymətləndirilməsi, xəbərlərin yayılmasına, ona qarşı profilaktik tədbirləri yalnız Operativ Qərargah tənzimləyir. Müvafiq obyektiv, şəffaf, qiymətləndirmə də bu qurum tərəfindən aparılır. Yəqin ki, Operativ Qərargah iyun ayında yeni qərarları açıqlayacaq. Hazırda Metropolitendə sərnişin daşıma fəaliyyətinin bərpası və yaxud da dayandırılması, uzadılması ilə bağlı məsələlər Operativ Qərargah tərəfindən tənzimlənir. Metropolitenin özünə gəldikdə isə pandemiyanın tələblərinə uyğun olaraq bütün mövcud infrastrukturun qorunub saxlanması, texniki normativ sənədlərə uyğun olaraq xidməti baxış və təmir işlərinin aparılması və s. hamısı planlaşdırılmış qaydada davam etdirilir".

*Qönçə Quliyeva*

## Yasamalda dəhşətli qətl



26 noyabr 2020-ci il tarixdə paytaxtın Yasamal rayonu ərazisində Əliyev Əli Calal oğlunun bıçaqlanaraq qəsdən öldürülməsi faktı üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə Yasamal rayon prokurorluğunda cinayət işi başlanaraq istintaq aparılıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, istintaqla müəyyən edilib ki, qeyd edilən tarixdə Həsənağa Abdullayev dostu Elvin Şəmmədov ilə birlikdə daha əvvəl aralarında baş vermiş mübahisəni aydınlaşdırmaq məqsədilə Alı Nuriyev və dostları - Əli Əliyev, Elvin Kərimov, Babək Məşədiyev və Eltac Rəsulov ilə Yasamal rayonu, 2-ci Alatava ərazisində görüşən zaman Həsənağa Abdullayev cüzi mübahisəni bəhanə edərək heç bir əsaslı səbəb olmadan xuliqanlıq niyyəti ilə bıçaqla Əli Əliyevə xəsarətlər yetirərək qəsdən öldürüb. Elvin Şəmmədov isə hadisə yerindən götürdüyü müxtəlif ölçülü daşlarla münaqişədə iştirak edən şəxslərin üzərinə doğru hücum edərək onlara fiziki zor tətbiq etməklə qərəzli xuliqanlıq hərəkətləri edib.

Həsənağa Abdullayev Cinayət Məcəlləsinin 120.2.2 (xuliqanlıq niyyətilə qəsdən adam öldürmə), 221.3-cü (silah qismində istifadə olunan əşyalar tətbiq etməklə xuliqanlıq etmə) maddələri ilə, Elvin Şəmmədov isə CM-nin 221.3-cü maddəsi təqsirləndirilən şəxs qismində cəlb edilərək barələrində məhkəmənin müvafiq qərarları ilə həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, hazırda cinayət işi üzrə istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## Arı zəhəri ilə müalicə proseduru



Arı zəhəri iltihabgötürücü və ağrıkəsici təsirə malikdir. Zəhər xəstənin vəziyyətini yaxşılaşdırır, tonus və iş qabiliyyətini artırır, yuxusuzluq, iştaha və qan-damar sisteminə müsbət təsir göstərir.

Həkim-fitoterapevt Elnur Eldaroğlu arı zəhərinin tətbiq sahələri barədə AZƏRTAC-a məlumat verərək deyib: "Arı zəhəri xroniki ağır sindromları, bel, boyun, baş ağrıları və diz ağrılarında, revmatoid-artritlərdə geniş istifadə olunur. Həmçinin dünya təbabətində çətin və müalicəyə tabe olmayan xəstəliklər qrupuna aid olan dağınıq sklerozda da arı zəhəri ilə müalicədən istifadə edilir. Ən çox oynaq və sinir sistemi xəstəliklərində tətbiq olunur. Arı sancması ilə müalicədən sonra xəstədə sanki bir oyanış hiss olunur".

Lakin bəzən zəhərin əks təsiri də olur. Ona görə də əvvəlcə pasiyent müayinədən keçirilir, qan analizləri götürülür, nəticələrə uyğun müalicə tətbiq edilir. Müalicə proseduru barədə bəhs edən həkim-fitoterapevt deyib: "İlk gün orqanizmin müəyyən bir hissəsindən, daha çox bel, böyrəküstü nahiyədən arı iynəsinin batırılması tətbiq edilir, günaşırı həmin müalicə mərhələli şəkildə artırıla-artırıla davam edir. Hətta bir müalicə kursundan 40-50, hətta 60-70-ə qədər arı sancmasından istifadə olunur. Bu, daha çox xəstəlikdən asılıdır. Payız, qış və yaz mövsümündə daha çox həmin müalicələr tətbiq olunur".

Həkimlər hamilə qadınlara, böyrək çatışmazlığı, qara ciyər xəstəliyi və dəri problemi olanlara həmin müalicəni tövsiyə etmirlər. Prosedurdan sonra arının iynə batırdığı nahiyəni mütləq yad cisimlərdən qorumaq lazımdır. Az kalorili məhsullarla qidalanmaq və bol maye qəbul etmək məsləhət görülür.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc və SİA agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**